Yaxşılıqla pislik eyni ola bilməz! (Ey mömin kimsə!) Sən (pisliyi) yaxşılıqla dəf et! (Qəzəbə səbrlə, cəhalətə elmlə, xəsisliyə comərdliklə, cəzaya bağışlanmaqla cavab ver!) Belə olduqda aranızda düşmənçilik olan şəxsi, sanki yaxın bir dost görərsən!

*(Qurani-Kərim, Fussilət, 34)*

## Şəkidə Bəxtiyar Vahabzadənin ev-muzeyi yaradılacaq



**Azərbaycan Prezidenti İlham Əliyev Şəki şəhərində Bəxtiyar Vahabzadənin ev-muzeyinin yaradılması və yaşadığı binaya xatirə lövhəsinin vurulması haqqında Sərəncam imzalayıb.**

Nazirlər Kabinetinə Şəki şəhərində xalq şairi Bəxtiyar Vahabzadənin ev-muzeyinin yaradılması və onun Şəkidə yaşadığı binaya xatirə lövhəsinin vurulması ilə bağlı zəruri tədbirlərin həyata keçirilməsini təmin etmək, habelə Sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

www.scwra.gov.az

Dinimiz milli-mənəvi sərvətimizdir.

# Cəmiyyət və Din

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 10 (291) / OKTYABR 2015-ci il

# Prezident İlham Əliyev: Ermənistan rəhbərliyi təxribatlardan əl çəkmir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də ATƏT-in Minsk qrupunun həmsədrləri Pyer Andryönu (Fransa), İqor Popovu (Rusiya), Ceyms Uorliki (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anji Kaspşiki qəbul etmişdir.***



Görüşdə Prezident İlham Əliyev bildirmişdir ki, Ermənistan rəhbərliyi təxribatlardan əl çəkmir. Keçən ilin oktyabrında prezidentlərin Paris danışıqlarından iki həftə keçməmiş Ermənistan işğal olunmuş Azərbaycan ərazilərində genişmiqyaslı hərbi təlimlərə başlamışdır. Ermənistan silahlı qüvvələrinə məxsus döyüş helikopterləri Azərbaycanın mövqelərinə hücumlar etmişdir. Azərbaycan tərəfi bir neçə gün buna cavab verməmişdir. Nəhayət, davamlı olaraq mövqelərimiz üzərində döyüş manevrləri həyata keçirən Ermənistan silahlı qüvvələrinin hərbi helikopterləri açıq şəkildə mövqelərimizə atəş açmağa cəhd etdikləri zaman məhv edilmişdir.

Dövlətimizin başçısı daha sonra qeyd etmişdir ki, bu ilin sentyabrında Ermənistan silahlı qüvvələrinin diversiya qrupunun ərazimizdə təxribat törətmək cəhdlərinin də qarşısı alınmış və işğalçılar xeyli sayda itki vermişlər. Prezident İlham Əliyev bildirdi ki, bütün bu təxribatlara görə Ermənistan prezidenti Serj Sarkisyan məsuliyyət daşıyır.

Dövlətimizin başçısı vurğulamışdır ki, Ermənistan hazırda regionda böyük təhlükə mənbəyinə çevrilmişdir. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal olunmuş ərazilərindən dinc əhaliyə mütəmadi olaraq atəş açır, hətta toy məclislərində iştirak edən insanlar belə atəşə tutulur və nəticədə mülki əhalimiz arasında itkilər olur. Azərbaycan tərəfi bu cür təxribatlara cavab verdikdə isə bizi günahlandırırlar. Prezident İlham Əliyev təəssüf hissi ilə vurğuladı ki, beynəlxalq ictimaiyyət və xüsusilə də vasitəçilər Ermənistan tərəfinin bu azğınlaşmış hərəkətlərinə adekvat reaksiya vermirlər.

Azərbaycan Prezidenti bildirmişdir ki, bütün bunlar azmış kimi, bu yaxınlarda diktator Sarkisyan rejimi yeni bir siyasi təxribata əl atmış, Dağlıq Qarabağın Ermənistanın tərkib hissəsi olduğunu bildirmişdir. Bu, dözülməz, hətta Ermənistanın rəsmi mövqeyinə belə zidd olan bəyanata da, əfsuslar olsun ki, vasitəçilər tərəfindən heç bir cavab verilməmişdir. Dövlətimizin başçısı vurğulamışdır ki, bütün bunlar Azərbaycan tərəfində böyük təəssüf hissi doğurur və vasitəçilərin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı missiyasına kölgə salır.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparıldı.



### İstanbulda “Azərbaycan - İslam mədəniyyətinin incisi” mövzusunda sərgi təşkil olunub

səh. 7

### Afinada keçirilən konfransda multikultural təhlükəsizliyin təminində Azərbaycan təcrübəsindən danışılıb

səh. 2

### "Nəzarət markası mexanizmi tam tətbiq olunduqdan sonra zərərli dini ədəbiyyatlar nə satıla, nə də yayıla biləcək"

səh. 9

### Mübariz Qurbanlı: “Milli-mənəvi dəyərlərimizi yad təsirlərdən qorumaq hər kəsin borcudur”

səh. 3

### Yüz il əvvəl yoxa çıxmış qədim dinlər

səh. 10



### Yaradılış sirri

səh. 11



### Təzəpir məscidində qanvermə aksiyası keçirilib

səh. 4

# Afinada keçirilən konfransda multikultural təhlükəsizliyin təminində Azərbaycan təcrübəsindən danışılıb




**Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev Yunanıstanın xarici işlər naziri Nikolaos Kotziasın dəvəti ilə oktyabrın 18-20-də Afinada keçirilən "Dini və mədəni plüralizm və Orta Şərqdə sülh içərisində mövcudluq" adlı beynəlxalq konfransda iştirak edib.**

Yunanıstanın dövlət və hökumət rəsmilərinin, müxtəlif ölkələrdən olan dini liderlərin və siyasi xadimlərin iştirak etdiyi konfransda Dövlət müşaviri "Multikultural təhlükəsizliyin təmin olunmasında Azərbaycan Respublikasının təcrübəsi" adlı məruzə ilə çıxış edib.

Məruzədə akademik K.Abdullayev ölkəmizdəki milli və dini müxtəliflik, bu müxtəlifliyin qorunması üçün dövlət tərəfindən həyata keçirilən siyasətlə bağlı geniş məlumat verib. O, Azərbaycanda multikultural təhlükəsizliyin dövlət təminatı və əsas prinsiplərindən bəhs edərək bildirib ki, Azərbaycanda multikultural təhlükəsizliyin prinsipləri ölkə daxilindəki müxtəlif konfessiyalara siyasi münasibətin bərabər şəkildə yönəlməsi, ölkədə mövcud olan milli müxtəlifliyin qorunmasına istiqamətlənmiş dövlət qayğısı, respublikada yaşayan bütün xalqların və etnik qrupların mədəni dəyərlərinin qorunmasına dövlət və cəmiyyət tərəfindən dəstək göstərilməsidir.

Bundan əlavə, Dövlət müşaviri ölkəmizdə yaşayan azsaylı xalqların öz dillərində təhsil almaları, onların doğma dillərində mətbuat orqanlarının olması, bu toplumların dillərində kitab çapı, dövlət radio və televiziyasında azsaylı xalqların dilinin, mədəniyyətinin qorunması üçün yaradılan imkanlar haqda danışıb.

K.Abdullayev Azərbaycanda etnik-mədəni müxtəlifliyin qorunması ilə bağlı görülən işlər çərçivəsində ölkəmizdəki yunan icmasından da söhbət açıb. O, hazırda Azərbaycanda 700-dən çox yunanın yaşadığını, 1994-cü ildən Azərbaycanda "Arqo" adlı yunan icmasının fəaliyyət göstərdiyini deyib, 1999-cu ildən Bakı Slavyan Universitetində yunanşünaslıq ixtisasının, daha sonra isə Yeni Yunan Dili və Mədəniyyəti Mərkəzinin açılmasından bəhs edib.

# Dövlət müşaviri Bağçaşəhər Universitetində Azərbaycan multikulturalizmi haqqında mühazirə oxuyub



Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev Bağçaşəhər Universitetinin dəvəti ilə bu universitetdə təhsil alan yerli və xarici tələbələrə "Multikulturalizmin Azərbaycan modeli" mövzusunda mühazirə oxumaq üçün Türkiyədə səfərdə olub.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) Himayəçilər Şurasının sədri Kamal Abdullayev dinləyicilərə Azərbaycandakı tolerant və multikultural mühit, burada yaşayan azsaylı xalqların və etnik qrupların dil, din və mədəniyyətinin qorunması üçün həyata keçirilən dövlət siyasəti, multikulturalizmin unikal modelini formalaşdıran Azərbaycan xalqının keçmişi və bu günü, hazırda dünyanın böyük maraq göstərdiyi Azərbaycan multikulturalizminin mədəni-mənəvi, siyasi və hüquqi əsasları haqqında ətraflı məlumat verib.

Dövlət müşaviri Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqlarından söhbət açarkən bütün dünyanın mədəni irsinə çevrilən "Kitabi-Dədə Qorqud" dastanlarının elm aləminə tanıdılmasının 200 illiyi ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamdan və bu Sərəncamda göstərilən tədbirlər planından irəli gələrək həyata keçirilən tədbirlərdən söhbət açıb.

Dövlət müşavirinin dünyanın nüfuzlu universitetləri sırasında yer alan Bağçaşəhər Universitetinin rəhbərliyi ilə görüşündə gələcəkdə Azərbaycan multikulturalizminin öyrənilməsi və təbliği ilə bağlı işlərdə bu təhsil ocağının yaxından iştirakı məsələsi müzakirə olunub. Universitet rəhbərliyi yaxın gələcəkdə "Azərbaycan multikulturalizmi" fənninin burada tədrisinə başlamaq istəklərini və bu istiqamətdə reallaşdırılacaq bütün tədbirlərdə yaxından iştirak etmək niyyətlərini bildiriblər.

Bundan əlavə, Dövlət müşaviri burada ABŞ-ın Nyu-York Dövlət Universitetinin (SUNY University at Albany) professoru Araş Alaey ilə də görüşüb. Görüşdə Azərbaycan multikulturalizminə böyük maraq göstərən professor Araş Alaey çalışdığı universitetdə də "Azərbaycan multikulturalizmi" fənninin tədrisinin maraqla qarşılanacağını diqqətə çatdırıb. O, gələcəkdə bu məqsədlə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə əlaqələr quracağını söyləyib.





## Azərbaycan hökuməti ilə BMT Sivilizasiyalar Alyansı arasında Saziş imzalanıb

Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev BMT Sivilizasiyalar Alyansının təşkilatçılığı və Müqəddəs Entoni Kollecinin Orta Şərq Mərkəzinin himayəsi ilə İngiltərənin Oksford Universitetində keçirilən "Paylaşılan dünyanın çağırışları" mövzusunda Əbdüləziz Saud Əl-Babteyn Mədəniyyət Fondunun 15-ci konfransında iştirak edib.

Səfər çərçivəsində nazir Əbülfəs Qarayevlə BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nassir Abdulaziz Al-Nasseri arasında görüş keçirilib və "Azərbaycan Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansı arasında 7–ci Qlobal Forumun 2016-cı il 25-27 aprel tarixində Bakıda keçirilməsinə dair Saziş" imzalanıb. Saziş ev sahibi ölkə ilə BMT Sivilizasiyalar Alyansı arasında müvafiq öhdəlik və tələbləri nəzərdə tutur.

Görüş zamanı, həmçinin beynəlxalq səviyyədə mədəniyyətlərarası dialoq və BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumuna hazırlıq məsələlərinə toxunulub. Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 24 iyul 2015-ci il tarixli Sərəncamı ilə müxtəlif dövlət qurumlarının rəhbər şəxslərindən ibarət Təşkilat Komitəsinin yaradılması bu qlobal tədbirin ölkə rəhbərliyi səviyyəsində xüsusi diqqətdə saxlanılmasının göstəricisidir.

# Dövlət Komitəsinin sədri Zərdabda vətəndaşları qəbul edib

**Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə müvafiq olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu davam etdirilir.**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı oktyabrın 27-də Zərdabda bu rayondan və Kürdəmirdən olan vətəndaşları qəbul edib. Dövlət Komitəsinin müvafiq qurumlarının rəhbərlərinin də iştirak etdiyi qəbul Zərdab şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilib.

Qəbulda 19 nəfər vətəndaşın müraciətinə baxılıb. Müraciətlər əsasən məscidlərin təmiri, elektrik enerjisi və istilik sistemi ilə normal təminatı, dini icmaların fəaliyyəti, dini maarifləndirmə



ilə əlaqədar bu icmalara vəsaitlərin ayrılması, dini icmaların dövlət qeydiyyatı, dini kitablarla təminat, bu cür kitabların satışı üçün lisenziyaların verilməsi və sair məsələlərlə bağlı olub.

Vətəndaşlar Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı tərəfindən diqqətlə dinlənilib. Bir çox məsələlər yerindəcə həll olunub. Araşdırılmasına ehtiyac olan bəzi müraciətlər isə qeydiyyata alınıb və onların həlli üçün konkret tapşırıqlar verilib. Komitənin səlahiyyətlərinə aid olmayan məsələlər isə aidiyyəti orqanlara çatdırılmaq üçün nəzarətə götürülüb.

Vətəndaşlar yerlərdə bu cür qəbulların keçirilməsinin təşəbbüsçüsü olan Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Mübariz Qurbanlı: “Milli-mənəvi dəyərlərimizi yad təsirlərdən qorumaq hər kəsin borcudur”




***Azərbaycan gənc dövlətdir və cəmi 24 ildir ki, ağır itkilər hesabına yenidən qazandığı müstəqilliyinə qovuşub. Bu gün dünyanın ağır siyasi və iqtisadi böhran içində yaşadığı zamanda üzərimizə gələcək nəslə qüdrətli bir dövlət təhvil vermək kimi tarixi missiya düşür. Bu, əlbəttə çox ağır və məsuliyyətli vəzifədir.***

***Bu fikirlər oktyabrın 27-də Zərdabda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rayon icra hakimiyyətinin dəstəyi ilə keçirdiyi regional konfransda səsləndirilib.***

Konfransı açan icra hakimiyyətinin başçısı Lütvəli Babayev islami dəyərlərin öyrənilməsi və düzgün təbliğindən, maarifləndirmə işlərinin zəruriliyindən, bu istiqamətdə rayonda görülən tədbirlərdən danışıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı İslamın tarixi, milli-mənəvi dəyərlərimizdə yeri, dövlət-din münasibətləri barədə ətraflı məlumat verib. Komitə sədri dünyada radikalizm meyillərinin güclənməsindən, bunun dəhşətli nəticələrindən, İslam pərdəsi altında siyasi hakimiyyət və ya var-dövlət qazanmaq cəhdlərindən bəhs edib.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu, hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilən dövlət-din siyasətinin uğurlu nəticələri barədə danışan M.Qurbanlı, dini maarifləndirmənin zəruriliyinə toxunub, dövlətimizin başçısının bu məqsədlə dini icmalara maliyyə yardımı göstərmək barədə müvafiq Sərəncamının əhəmiyyətindən danışıb.

Dövlət Komitəsinin sədri qeyd edib ki, Azərbaycanda əsrlər boyu müxtəlif xalqların nümayəndələri dinc, tolerantlıq şəraitində yaşayıb və indi də yaşamaqdadırlar. Bu dəyərləri yad təsirlərdən, xarici emissarların fitnə-fəsadlarından qorumaq bu gün mühüm vəzifə kimi qarşıda durur. Bu sahədə xüsusilə din xadimlərinin, dini icmaların diqqətli olmaları zəruridir. Xalqımız ənənəvi İslam dəyərlərinə söykənir və yad təsirləri heç vaxt qəbul etməyəcək. İslami dəyərlərin yaşadılması və gələcək nəsillərə ötürülməsi hər kəsin, xüsusən dindarların müqəddəs borcudur.

Konfransda Qafqaz Müsəlmanları İdarəsinin bölgə qazısı Əli Məmmədov çıxış edərək, regionlarda dini radikalizm meyillərinə qarşı aparılan maarifləndirici tədbirlərdən danışıb.

Həmin gün Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Zərdab Cümə Məscidinə də gələrək dini icma rəhbərləri ilə görüşüb, məscidə dini kitablar hədiyyə edib.

Sonra gənclərlə görüş keçirilib, “Ənənəvi dini dəyərlərimiz və gənclik” mövzusunda çıxışlar olub.







# Moizə və xütbələrdə vətənpərvərlik hisslərinin aşılanması vacibdir

**Oktyabrın 13-də Məhərrəm ayının başlanması ilə əlaqədar Qafqaz Müsəlmanları İdarə-sində (QMİ) tədbir keçirilib.**

Tədbirdə QMİ-nin Qazılar Şurası və Elmi-Dini Şurasının üzvləri, qurumun səlahiyyətli nümayəndələri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi, Bakı İslam Universitetinin müəllim-tələbə heyəti iştirak edib.

Tədbiri açan Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə QMİ-nin Azərbaycan Milli Elmlər Akademiyasının Şamaxı Astrofizika Rəsədxanası ilə birgə hazırladığı yeni 1437-ci hicri ilinin təqvimini təqdim edib. Bildirib ki, bu təqvim elmlə dinin vəhdətdə insanlarımıza xidmətinin nümunəsi olmaqla yanaşı, milli vəhdətimizə xidmət edən çox vacib məsələdir. Bu, həm də ümummilli əhəmiyyət kəsb edir. Belə ki, ölkə ərazisində azanın eyni vaxtda verilməsi milli-mənəvi birliyimizi, daxili vəhdətimizi təmin etmək baxımından zəruridir. Qazılar Şurasının üzvləri və səlahiyyətli nümayəndələri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və onun yerlərdəki nümayəndələri ilə əməkdaşlıq şəraitində ölkə ərazisində azanın verilməsi ilə bağlı QMİ-nin və Şamaxı Rəsədxanasının birlikdə hazırladıqları təqvimə riayət olunmasına birgə nəzarət həyata keçirəcək və bu təqvimə əməl etməyənlər cəzalandırılacaq.

QMİ sədri vurğulayıb ki, Qazılar Şurası yeni hicri ilinin başlanması münasibətilə - Məhərrəm ayı ilə bağlı fətva qəbul edib. Həmin fətvada Aşura mərasiminin keçirilməsi ilə bağlı tövsiyələr yer alıb. Şeyxülislam Məhərrəm ayının dini qaydalara və dövlətin qanunlarına uyğun keçirilməsinin vacibliyini vurğulayıb, bu barədə axund və imamlara müvafiq tapşırıq və tövsiyələrini verib.

Daha sonra QMİ Qazılar Şurası Məhərrəm ayının başlanması ilə əlaqədar fətva verib. Fətvada qeyd edilir ki, hicri-qəməri təqvimi ilə 1436-cı il başa çatır. Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası bildirir ki, yeni hicri 1437-ci ilin başlanğıcı – Məhərrəm ayının 1-i miladi təqvimlə 2015-ci il oktyabr ayının 15-nə, Aşura günü isə oktyabrın 24-nə təsadüf edir.

Tədbirdə A.Paşazadə məscidlərdə oxunan moizə və xütbələr haqqında da danışıb. Bildirib ki, din xadimlərinin moizə və xütbələrində vətənpərvərlik hisslərinin aşılanması vacibdir və milli, habelə məzhəb ayrı-seçkiliyinin təbliği qəti yolverilməzdir. Bu məsələyə nəzarət daha da gücləndiriləcək.



# Təzəpir məscidində qanvermə aksiyası olub

**Oktyabrın 24-də Aşura günü ilə əlaqədar olaraq Təzəpir məscidində qanvermə aksiyası keçirilib. Səhiyyə Nazirliyi və Qafqaz Müsəlmanları İdarəsi tərəfindən irsi qan xəstəliklərindən əziyyət çəkənlərə yardım məqsədilə könüllü qanvermə aksiyaları ölkənin 14 məscidində təşkil edilib.**

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı, akademik Vasim Məmmədəliyev, deputat Cavanşir Paşazadə və Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının yepiskopu Aleksandr İşein də Aşura günü ilə əlaqədar qan veriblər.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Aşura gününü insanların sovet dövründə də qeyd etdiklərini söyləyib. Bildirib ki, həmin vaxtlar insanlar məscidlərdə yığışa bilməsələr də, evlərdə qeyd edirdilər.

Şeyxülislam deyib ki, Azərbaycanda tolerantlıq, din və dövlət münasibətləri ən yüksək səviyyədədir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Türkiyədə və İranda olarkən, Aşurada qan verilməsini gördüyünü söyləyib. Diqqətə çatdırıb ki, o, hər il qanvermə aksiyasında iştirak edir.

Aleksandr İşein isə Aşura günü ilk dəfə qan verdiyini söyləyib. Qeyd edək ki, bütün İslam dünyası üçün müqəddəs olan Aşura günündə qeyri-islam dini icmasının rəhbərinin ölkənin müsəlman əhalisi ilə birgə mərasimdə iştirak etməsinin çox böyük əhəmiyyəti var. Bu fakt özlüyündə ölkəmizin sahib olduğu tolerant və multikultural dəyərlərin bariz göstəricilərindən biridir.

B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun direktoru Zöhrə Əlimirzəyeva diqqətə çatdırıb ki, Aşura günü ilə bağlı Təzəpir məscidində qanvermə aksiyası saat 7:30-da başlayıb və saat 10:00-a qədər 108 nəfər qanvermə aksiyasında iştirak edib: "Ölkənin 14 məscidində 1000-dən çox insan qan verib. Ötən il Aşura günü ilə əlaqədar olaraq qanvermə aksiyasında 4670 nəfər iştirak etmişdi. Düşünürəm ki, bu il də aşağı rəqəmlər olmayacaq".

# "Dini radikalizmlə mübarizədə dini icmaların rolu" mövzusunda konfrans keçirilib



**Oktyabrın 20-də "Dini radikalizmlə mübarizədə dini icmaların rolu" mövzusunda keçirilən konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Səyavuş Heydərov deyib ki, dini radikalizmə meyl edənlərin qarşısı vaxtında alınmalıdır.**

S.Heydərov bildirib ki, bu məsələdə dini icmaların üzərinə daha çox məsuliyyət düşür. Radikalizm yolunu tutanlar nə qədər gec deyil o yoldan qayıtmalıdırlar. Əks halda, onlarla bağlı qanunla ciddi tədbir görüləcək. "Bəzən valideynlər bizə müraciət edirlər ki, övladları radikal cərəyanlara qoşulub. Düşünürəm ki, biz bunun qarşısını almaq üçün var gücümüzlə çalışmalıyıq", - deyə S.Heydərov əlavə edib.

Komitə sədrinin müavini hüquq mühafizə orqanlarının dini cərəyanlara qarşı ciddi işlər gördüyünü qeyd edərək bildirib ki, radikalizmlə mübarizədə hər kəs fəal olmalıdır. Hazırda Azərbaycanda hüquq mühafizə orqanları bu istiqamətdə işlər görür.

S.Heydərov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən dini radikalizmlə mübarizə istiqamətində silsilə tədbirlər keçirildiyini diqqətə çatdırıb. Bununla bağlı DQİDK ilə Qafqaz Müsəlmanları İdarəsi arasında sıx əməkdaşlığın mövcud olduğunu vurğulayıb.

Sədr müavini deyib: "Radikalizmlə mübarizədə fəallıq göstərmək lazımdır. Kəndlərdə, qəsəbələrdə, məscidlərdə bu məsələ diqqətdə saxlanılmalıdır. Radikalizm yolundan qayıtmaq fikrində olmayanlar haqda qanunla tədbirlər görüləcək, necə ki hazırda görülür".

Konfransda DQİDK-nın dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov "Dini radikalizm: mahiyyəti, səbəbləri və təzahür formaları", komitənin Bakı şəhəri üzrə şöbə müdiri Anar Kazımov "Dini radikalizmlə mübarizə yolları" mövzusunda məruzələrlə çıxış ediblər.



## Dövlət Komitəsində görüşlər



Oktyabrın 1-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycan Bəhai icmasının nümayəndələrini qəbul edib.

Görüşdə Azərbaycandakı dini tolerantlıq, dövlətin dinə diqqət və qayğısından danışılıb, icmanın gələcəkdə nəzərdə tutduqları işlər barədə məlumat verilib.

* * *

Oktyabrın 8-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı Türkiyənin keçmiş Dəyanət İşləri başqanı Təyyar Altıkulacı qəbul edib.



Görüşdə ölkəmizin xarici siyasətində Türkiyə ilə əlaqələrin daha da genişləndirilməsinin daim diqqət mərkəzində olduğu qeyd edilib, bütün sahələrdə olduğu kimi, din sahəsində də əlaqələrin yüksək səviyyədə davam etdiyi vurğulanıb. Həmçinin dini radikalizm və ekstremizmə qarşı mübarizə məqsədilə Türkiyə və Azərbaycan mütəxəssislərinin iştirakı ilə birgə tədbirlərin keçirilməsi barədə fikir mübadiləsi aparılıb.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQDİK) sədri Mübariz Qurbanlı oktyabrın 9-da İsveçdə fəaliyyət



göstərən "Həyat sözü" beynəlxalq kilsəsinin direktoru Kristian Okerhelmi qəbul edib.

Azərbaycanın tarixən müxtəlif konfessiyaların, xalqların, eləcə də ayrı-ayrı etiqad və inanclara malik etnosların sülh və əmin-amanlıq şəraitində birgə yaşadığı ölkə olduğu qeyd edilib. Bildirilib ki, ölkədə yaşayan müxtəlif din və məzhəblərin nümayəndələrinə qayğı göstərməyin, onların problemlərini həll etməyin Azərbaycan dövlətinin din siyasətinin prioritet istiqamətlərindəndir, dövlət tərəfindən İslam və qeyri-islam dini icmalarına mütəmadi olaraq maliyyə vəsaiti ayrılır.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı oktyabrın 14-də Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri



Musaid bin İbrahim bin Abdullah Əl-Səlimi qəbul edib.

Həcc ziyarəti zamanı Mina dağında baş vermiş faciə nəticəsində çox sayda zəvvarın həlak olması ilə əlaqədar səfirə bir daha başsağlığı verən Mübariz Qurbanlı ölkələrimiz arasında ikitərəfli münasibətlərin hazırkı səviyyəsindən məmnunluğunu ifadə edib.

Musaid bin İbrahim bin Abdullah Əl-Səlim Mina dağındakı faciə ilə bağlı göstərdiyi diqqətə və başsağlığına görə Səudiyyə Ərəbistanı Krallığının adından Azərbaycan Prezidenti cənab İlham Əliyevə təşəkkür edib. Bildirib ki, bu həm də iki qardaş və dost dövlətin biri-birinə dəstəyinin ifadəsidir.

Görüşdə gələcəkdə din sahəsində elm və təcrübə mübadiləsi məqsədilə birgə tədbirlərin, konfransların keçirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

* * *



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı oktyabrın 15-də Gürcüstanın Azərbaycandakı səfiri Teymuraz Şaraşenidzeni qəbul edib.

Görüşdə Gürcüstan ilə Azərbaycan arasında tarixən mövcud olan dostluq və mehriban qonşuluq münasibətlərindən danışılıb, əlaqələrin daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında müzakirələr aparılıb.

## Rusiyada Qafqaz Müsəlmanları İdarəsinin sədrinə orden təqdim edilib

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə oktyabrın 22-də Rusiya Federasiyası Başqırdıstan Respublikasının paytaxtı Ufa şəhərində keçirilən "XXI əsr təhsil müstəvisində İslamın idealları və dəyərləri" mövzusunda VIII beynəlxalq elmi-praktik konfransda iştirak edib.

Konfransın gedişində A.Paşazadənin Rusiya Mərkəzi Ruhani İdarəsinin ali mükafatı – "Əl-İzzət — Şərəf, Şöhrət və Ləyaqət" ordeni ilə təltif olunduğu barədə fərman oxunub. Orden QMİ sədri, MDB Dinlərarası Şurasının həm-



sədri şeyxülislam Allahşükür Paşazadəyə İslam dininə uzunmüddətli etibarlı xidmətinə, dünya miqyasında sülh və həmrəyliyin ardıcıl müdafiəsi işində uğurlarına, dünya xalqları, Rusiya və Azərbaycan arasında dostluq və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə layiqli töhfəsinə, millətlərarası və dinlərarası dialoq işinə hərtərəfli dəstəyinə, insanların dünyanın taleyinə görə Yaradan, Vətən, gələcək nəsillər qarşısında məsuliyyət daşıdıqları hissini aşıladığına görə verilib.

Ordeni və xüsusi hədiyyəni QMİ sədrinə Rusiya Mərkəzi Ruhani İdarəsinin sədri baş müfti Talqat Tacuddin təqdim edib.

Şeyxülislam A.Paşazadə tədbirdə məruzə ilə çıxış edib.

Beynəlxalq konfrans işini oktyabrın 23-də davam etdirib.

# Dövlət Komitəsində müşavirə keçirilib

**Oktyabrın 7-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) geniş müşavirə keçirilib. Müşavirədə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Komitə sədrinin müavinləri, DQİDK-nın Mərkəzi Aparatının və bölgə şöbələrinin müdirləri iştirak ediblər.**

Müşavirədə çıxış edən Komitə sədri Mübariz Qurbanlı ölkədəki dini durum, Milli Məclisin plenar iclasında "Dini etiqad azadlığı haqqında" Qanuna dəyişikliklər edilməsi ilə bağlı fikirlərini bildirib. Qeyd edib ki, Qanunda edilən dəyişiklik Dövlət Komitəsinə əlavə səlahiyyətlər verməklə yanaşı, məsuliyyəti də artırır. Eyni zamanda göstərilib ki, Dövlət Komitəsinin bütün respublika üzrə dini maarifləndirmə məqsədilə keçirdiyi tədbirlər öz bəhrəsini verir və Dövlət Komitəsi bu fəaliyyətini ardıcıl olaraq davam etdirilməlidir.



Müşavirədə Məhərrəm ayının başlanması münasibətilə qəbul edilən tədbirlər planı haqqında Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Əliheydər Zülfüqarov ətraflı məlumat verərək bildirib ki, qəbul edilən plana görə, Dövlət Komitəsi öz fəaliyyətini bir neçə istiqamətdə quracaq. Buraya maarifçilik işlərinin aparılması, sosial yönümlü tədbirlərin keçirilməsi, monitorinqlər və s. daxildir. Eyni zamanda Dövlət Komitəsi QMİ-nin təşəbbüsü ilə keçirilən qanvermə aksiyasına da dəstək verəcəkdir.

Müşavirədə bölgə şöbə müdirlərinin aylıq hesabatları dinlənilib, dini icmaların maarifləndirmə məqsədilə həyata keçirilən layihələrinin davam etdirilməsi, yeni icmaların yaradılması, məscid və icmaların qeydiyyatı məsələləri müzakirə olunub.

## BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR

# AĞCABƏDİ

***Ağcabədi bölgəsi üzrə şöbə 2015-ci ilin may ayında keçmiş Qarabağ şöbəsi əsasında təşkil olunmuşdur. Şöbənin dislokasiyasına Ağcabədi, Ağdam, Füzuli, Laçın və Tərtər rayonları daxildir. 2015-ci ilin ötən 10 ayında şöbədə işlər əsasən aşağıdakı istiqamətlərdə görülmüşdür: Ağcabədi bölgəsində dini durumun monitorinqi və maarifləndirmənin təhlili, qabaqlayıcı profilaktik işlər görülməsi, əlamətdar dini-tarixi günlərə həsr olunmuş tədbirlərin həyata keçirilməsi, yerli hüquq-mühafizə orqanları, dini komissiyalar və icmalarla birgə fəaliyyət göstərilməsi, regional konfranslar, seminar-treninqlər vasitəsi ilə dini maarifləndirmə işinin aparılması və s. Dini durum və dövlət-din münasibətlərinin tənzimlənməsi daim diqqətdə saxlanılmış, qanunauyğun surətdə çap olunmuş dini ədəbiyyatın dindarlar arasında yayılmasına nəzarət gücləndirilmişdir. Bu dövr ərzində Dövlət Komitəsi tərəfindən çap olunmuş və radikal dindarlığı ifşa edən 30 adda 2000-dən çox ədəbiyyat bölgə dindarlarına və əhalinin digər nümayəndələrinə paylanılmışdır.***



Bölgədəki ixtisaslaşdırılmış dini kitab mağazalarının fəaliyyətinin yaxşılaşdırılması, din pərdəsi altında qeyri-ənənəvi dinləri yayanlara və əhali arasında məzhəb ayrı-seçkiliyi salanlara qarşı mübarizə işlərinin sürətləndirilməsi, regiondakı məscidlərin dəqiqləşdirilmiş siyahısı və fəaliyyəti, o cümlədən bölgə üzrə xaricdə və ölkə daxilində dini təhsil almış şəxslər haqqında məlumatların əldə edilməsi, ayrı-ayrı şəxslərin zərərli dini fəaliyyəti ilə bağlı nəzarətə götürülməsi və ümumilikdə dini sabitliyin qorunub saxlanılması istiqamətində mövcud qanunvericiliyə müvafiq işlər görülmüşdür. Bu məqsədlə yerli hüquq-mühafizə orqanlarının əməkdaşları ilə birlikdə Tərtər, Ağdam, Ağcabədi, Füzuli və Laçın rayonlarında 12-dən artıq qabaqlayıcı profilaktik tədbirlər həyata keçirilmişdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının iştirakı ilə bölgədə üç dəfə Ağcabədi, Ağdam və Tərtər rayonlarında "Ənənəvi İslam dəyərləri və müasirlik" mövzusunda regional tədbirlərin keçirilməsi xüsusi əhəmiyyət kəsb etmişdir. Bölgədəki bəzi radikal qrup və dindarların fəaliyyətinin zəifləməsində belə tədbirlər də rolu olmuşdur. Bu tədbirlər çərçivəsində Dövlət Komitəsi sədrinin yerli dindarları, ziyalıları, ağsaqqaları və cəmiyyətin müxtəlif təbəqələrindən olan insanları qəbul etməsi Azərbaycan Respublikasında dövlət-din münasibətlərinin tənzimlənməsi, ölkədəki və bölgədəki dini durumun hərtərəfli təhlil edilməsi baxımından işimizi daha yaxşı qurmağa öz təsirini göstərmişdir.

Ağcabədi bölgəsində il ərzində radikal dini qrupların fəaliyyəti nəzarətdə saxlanılmış, bu istiqamətdə bölgədəki rayonlarda müvafiq təşkilatlarla birlikdə müxtəlif mövzulu tədbirlər də keçirilmişdir.

Belə ki, 4 aprel 2015-ci ildə Dövlət Komitəsi Daxili İşlər Nazirliyi (DİN) ilə birlikdə Tərtər rayonunda "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda regional seminar-treninq keçirmişdir. Bu tədbirlərdə DİN-in Baş ictimai təhlükəsizlik idarəsinin rəis müavini, polis polkovnik-leytenantı Hikmət Eyvazov və Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı, Ağcabədi bölgəsi üzrə şöbənin əməkdaşları, həmçinin Şuşa, Tərtər, Goranboy, Naftalan rayonlarının polis rəisləri, prokurorluq və MTN-in yerli şöbələrinin rəhbərləri iştirak etmişlər.

Dini icmalar tərəfindən görülən işlərin təhlili, icra hakimiyyətləri yanındakı dini komissiyaların fəaliyyətinin öyrənilməsi və onlarla əməkdaşlıq, bölgədəki xarici şirkətlərin bəzi əməkdaşlarının dini fəaliyyətlərini, həmçinin bölgə axundlarının cümə məscidlərində moizə və xütbələrin verilməsindəki iştirakını müəyyənləşdirmək, məscidlərin fəaliyyətini araşdırmaq, kitab mağazalarının işinə nəzarət kimi digər məsələlər də şöbə tərəfindən yerinə yetirilmişdir. Eyni zamanda, bölgəyə daxil olan hər bir rayonda dini durumun monitorinqi keçirilmiş və dini durum müvafiq rayon icra hakimiyyətləri yanındakı dini komissiyalarda təhlil edilərək bu barədə Dövlət Komitəsinə müvafiq arayışlar təqdim edilmişdir. Cari ilin əvvəlindən başlayaraq Ağcabədi, Ağdam, Tərtər və Laçın rayonlarında radikal dini qrup nümayəndələrinin qanunsuz olaraq xarici dövlətlərdəki silahlı birləşmələrdə iştirakı məsələsi də ciddi müzakirə obyekti olmuş və müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara müraciətlər edilmişdir. Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev, DQİDK-nın sədri Mübariz Qurbanlı, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Hacı Allahşükür Paşazadə, Milli Məclisin sədr müavini Bahar Muradova, bölgədən olan deputatlar - Tahir Rza, Aqil Abbas, Gövhər Baxşəliyeva, Zahid Oruc, eyni zamanda Dövlət Komitəsinin sədr müavinləri S.Salahlı, G.İsmayılov və başqa məsul şəxslərin Ağcabədi bölgəsində təşkil olunmuş tədbirlərdə iştirakları və çıxışları dini radikalizmə qarşı ideoloji mübarizəyə öz töhfəsini vermişdir.

Ağcabədi bölgəsi üzrə şöbənin dini maarifləndirmə istiqamətində həyata keçirdiyi tədbirlər arasında bölgə gəncləri ilə müvafiq rayonların Gənclər və İdman idarəsinin birgə təşkil etdiyi silsilə tədbirlər xüsusi yer tutur. Bu cəhətdən ayrı-ayrı mövzularda Xocavənd, Ağcabədi və Tərtər rayonlarında Dövlət Komitəsi rəhbərliyinin göstərişi ilə genişmiqyaslı tədbirlər icra edilmişdir. Bu tədbirlərdə Dövlət müşaviri Kamal Abdullayev, AMEA-nın Tarix və Etnoqrafiya, Əlyazmalar, Ədəbiyyat, Folklor, Fəlsəfə İnstitutlarının, həmçinin Bakı Dövlət və Bakı Slavyan Universitetlərinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professor-müəllim heyəti, QMİ-nin və BİU-nun, o cümlədən başqa tədris müəssisələrinin əməkdaşları, qeyri-hökumət təşkilatlarının nümayəndələri, rayon icra hakimiyyətlərinin başçıları və müvafiq yerli icra strukturlarının nümayəndələri iştirak etmişlər.

*(Davamı 8-ci səhifədə)*



# İstanbulda "Azərbaycan - İslam mədəniyyətinin incisi" mövzusunda sərgi təşkil olunub

Oktyabrın 23-də Türkiyənin İstanbul şəhərindəki 29 Mayıs Universitetində İslam Araşdırmaları Mərkəzi (İSAM) ilə birlikdə "Azərbaycan - İslam mədəniyyətinin incisi" mövzusunda sərgi təşkil olunub.



Tədbirdə Mərkəzin rəhbəri, dinşünas-alim Təyyar Altıqulac və Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı çıxış edərək sərgi barədə fikirlərini bölüşüblər.

Komitə sədrinin birinci müavini S.Salahlı İslamın Azərbaycanda VIII əsrin əvvəllərindən etibarən hakim bir din olduğunu sərgi iştirakçılarının diqqətinə çatdırıb. Azərbaycan xalqının İslam mədəniyyətinə verdiyi töhfələr barədə geniş məlumat verən S.Salahlı qeyd edib ki, Azərbaycan Avropa ilə Asiyanın qovuşacağında yerləşdiyi üçün onun mədəniyyəti də həm Qərbin, həm də Şərqin elementlərini özündə ehtiva



edir. Müxtəlif dövrlərdəki qadağalara baxmayaraq, ölkəmizdə İslam mədəniyyəti ənənələri uzun illər qorunub saxlanmış və bu gün də həmin dəyərlər inkişaf etdirilir, yeni nəsillərə çatdırılır. Qloballaşma dövründə Azərbaycan mədəniyyəti dünya mədəniyyətinə uğurla inteqrasiya olunur, ancaq müstəqil Azərbaycan dövləti öz mədəniyyət siyasətində milli-mənəvi dəyərləri qoruyub saxlamaq üçün əhəmiyyətli tədbirlər həyata keçirir.

Həmçinin sərgi iştirakçılarının sualları cavablandırılıb. Qeyd edək ki, sərgi bir neçə gün davam edəcək.

## BÖLGƏ MÜDİRLƏRİMİZ HESABAT VERİR

# AĞCABƏDİ

*(Əvvəli 7-ci səhifədə)*

"Yeni Üfüq" Mənəvi İrsin Təbliği İctimai Birliyinin aprel ayında Tərtərdə və avqust ayında Ağdam şəhərində rayon gəncləri ilə birlikdə "Milli adət-ənənələrimiz və müasirlik" mövzusunda keçirdikləri tədbirlər də əhəmiyyətli olmuşdur.

Bölgə məscidlərində dini icmalarla birlikdə həyata keçirilən tədbirlər arasında may ayında Ağcabədi rayon Seyid Mürsəl Ağa dini icmasında "Ənənəvi İslamda İnsan Hüquqları" mövzusunda keçirilmiş tədbir xüsusi qeyd olunmalıdır. Bundan başqa, Azərbaycan Müəllimlər İnstitutunun Ağcabədi filialında və Ağcabədi Pedaqoji liseyində gənclərin dini maarifləndirilməsi məqsədilə "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda keçirilmiş konfransların əhəmiyyəti də xüsusi vurğulanmalıdır. Onu da qeyd edim ki, Ağcabədi bölgəsi dindarlarının Bakıda 1-ci Avropa oyunlarının keçirildiyi dövrdə əhali, xüsusilə də gənclər arasında apardıqları məqsədyönlü izahat işləri təqdirə layiqdir.



Ağcabədi bölgəsinin dislokasiyasına daxil olan məscidlərə gəldikdə, onların sayı 39-dur. Bunlardan 16-sı Ağcabədidə, 9-u Ağdamda, 7-si Tərtərdə, 7-si isə Füzuli rayonundadır. Ağcabədi bölgəsində 4 dini icma fəaliyyət göstərir (Ağcabədidə 3, Ağdamda 1). Bəhs olunan dövrdə yalnız Ağcabədi rayonunda 1 dini kitab mağazası fəaliyyət göstərmişdir.

Hazırda bölgədə 4 ziyarətgah - Seyid Lazım Ağa ziyarətgahı (Ağdam), Eşq Abdal ziyarətgahı (Ağdam), Seyid Bəhmən Ağanın ocağı (Ağcabədi) və Seyid Aynanın ocağı (Ağcabədi) fəaliyyət göstərir. Bunlar arasında dindarların daha çox Seyid Lazım Ağa ziyarətgahına gəldiyi müşahidə olunur.

Şöbə mütəmadi olaraq rayon, şəhər və bir neçə böyük kənd məscidində Cümə namazlarını müşahidə etmişdir. Bu məqsədlə Dövlət Komitəsinin yerli şöbə müdiri və əməkdaşlar tərəfindən məscidlərə nəzarət gücləndirilmiş, Cümə namazını qıldıran, moizə və xütbə verən din xadimlərinin kimliyi müəyyən olunmuş, mövcud xütbə vəsaitindən necə istifadə edilməsinə, "Qazi Qarabağ azanı"nın verilməsinə nəzarət edilmiş, moizə və xütbələrin mövzusu ilə bağlı axund və imamlara müvafiq təklif və tövsiyələr də verilmişdir.

Aktual mövzulardan biri də Ağcabədi bölgəsində sadələşdirilmiş yas mərasimlərinin təşkili olmuşdur. Bu sahədəki izahat işləri artıq öz nəticəsini verməkdədir. Belə ki, aparılmış maarifləndirmə işinin uğurlu nəticəsidir ki, yas mərasimlərindəki israfçılığa son verilmişdir. Hətta bəzi rayonlarda "üç" ilə "yeddi" mərasimləri artıq birləşdirilmişdir. Bir ildir ki, Füzuli, Ağcabədi, Ağdam, Tərtər və Laçın rayonlarında ehsan olaraq ara günlərdə yalnız çay, qənd və halva verilir. Bu işdə müvafiq rayon icra hakimiyyəti rəhbərliyinin rolu xüsusi qeyd olunmalıdır.

Ağcabədi bölgəsində əlamətdar dini-tarixi mərasimlər münasibətilə keçirilən tədbirlər əvvəlki dövrə nisbətən indi daha yaxşı təşkil olunur. Həm dini, həm tarixi, həm də bayram və əlamətdar günlərdə Ağcabədi şöbəsi müəyyən fəallıq göstərmişdir. Son 10 ayda Peyğəmbərin doğum həftəsi, 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Həzrət Fatimeyi-Zəhranın mövludu və vəfatı, Novruz bayramı, 31 Mart azərbaycanlıların soyqırımı günü, Həzrət Əlinin və Həzrət Hüseynin mövludu, İmam Zamanın mövludu, Ramazan və Qurban bayramları, Aşura günü bölgə məscidlərində sistemli şəkildə qeyd olunmuş və hər bir mərasimdə dini maarifləndirmə işinə geniş yer verilmişdir.

Hər il olduğu kimi, bu il də ölkəmizdə Azərbaycan Respublikası Silahlı Qüvvələri günü, Beynəlxalq Narkomaniya ilə mübarizə gününə, həmçinin insan hüquqlarının müdafiəsinə həsr edilmiş tədbirlərimiz baş tutmuşdur. Bununla bağlı Ağcabədi rayon Cümə məscidində gənclər, ziyalılar və dindarların iştirakı ilə yığıncaqlar keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dini icmalara ayırdığı vəsait hesabına Dövlət Komitəsinin dəstəyi ilə Ağcabədi rayon Seyid Mürsəl Ağa məscidi dini icması, Muğanlı kənd məscidi dini icması və Ağdam rayon Xındırıstan kənd məscidi dini icmalarının hər birində iftar süfrələri açılmışdır. Həmçinin "Qəhrəmanlar unudulmur" layihəsini reallaşdırmaq üçün Ağcabədi rayon Muğanlı kənd məscidi dini icmasına 5000 manat vəsait ayrılmışdır.

Məlumat üçün bildirirəm ki, Ağcabədi bölgəsinə daxil olan rayonların heç birində rəsmi dini tədris müəssisəsi fəaliyyət göstərmir. Cari ilin əvvəlinə olan məlumata görə, bu bölgəyə daxil olan Ağcabədi rayonunda 34, Ağdamda 30, Tərtərdə 16, Füzulidə 10 və Laçında 12 nəfər olmaqla, cəmi 102 nəfər ali təhsilli dindar fəaliyyət göstərir. Onların əksəriyyəti Bakı İslam Universitetinin məzunlarıdır. Həmçinin, bölgədə təxminən 114 nəfər molla fəaliyyət göstərir. Onların yarısı QMİ-nin attestasiyasından keçmişdir.

2015-ci ilin I yarısında bölgədəki Füzuli rayonunun "Əhli-beyt" məscidi dini icmasının axundu Nəriman Nəsirov Dövlət Komitəsinin Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 92-ci ilinə həsr olunmuş "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" mövzusunda keçirdiyi müsabiqənin qalibi olmuşdur. Bu müsabiqədə, həmçinin Ağcabədi şəhər Cümə məscidi dini icmasının üzvü Azadov Etibar da qalib olmuşdur.

Bir məsələni də əlavə edim ki, "Aşura" mərasimi bölgədə çox sabit keçmişdir. Dini zəmində heç bir hadisə baş verməmiş, zəncir vurma, baş yarma, qan çıxarma və digər hallar müşahidə edilməmişdir. Ağcabədi bölgəsinə daxil olan rayonlar cəbhə bölgəsində yerləşir.

Şübhəsiz, görülmüş işlər bölgədəki dövlət-din münasibətlərinin tənzimlənməsini həllə ki, tələb olunan səviyyədə əhatə etmir. Ancaq Ağcabədi şöbəsinə əlavə işçilərin verilməsi işimizi canlandırmışdır. Şöbənin əməkdaşları çalışırlar ki, rəhbərlik tərəfindən verilmiş tapşırıqlara əsasən əhali arasında daha çox olsunlar və yerli dindarlarla sıx əməkdaşlıq etsinlər. Hər halda görülmüş işlərlə yanaşı, həlli vacib olan bəzi məsələlər də mövcuddur. Ona görə də bu tədbirlərlə kifayətlənmək olmaz. Çalışacağıq ki, ilin sonuna qədər Dövlət Komitəsinin rəhbərliyi tərəfindən qarşıya qoyulmuş həlli vacib işlərin öhdəsindən layiqincə gələk.

***Əlizadə NƏCƏFOV,***
***Ağcabədi bölgəsi üzrə şöbənin müdiri, tarix üzrə fəlsəfə doktoru***

# Dini maarifləndirmə layihəsi çərçivəsində

Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama əsasən bölgələrdə seminarlar, "dəyirmi masa"lar, görüşlər keçirilir.










Bu qəbildən növbəti tədbirlər Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Bakının **Qaradağ** rayonunda, **Gəncədə, Tovuzda, Yevlaxda** və **Zaqatalada** təşkil olunub. "İslamda qadına verilən dəyər", "Milli-mənəvi dəyərlərimizi gənclər arasında aşılanması", "Milli-mənəvi və ümumbəşəri dəyərlərin məktəblilərin tərbiyəsindəki rolu", "Gənclərimiz və milli-mənəvi dəyərlərimiz" və "Dini radikalizm və onun zərərləri" mövzularında keçirilmiş tədbirlərdə Dövlət Komitəsinin əməkdaşları, ziyalılar, gənclər, ağsaqqallar və dindarlar iştirak ediblər.

Çıxışlarda dövlətin din siyasəti barədə ətraflı məlumat verilib, dini maarifləndirmə sahəsində görülən işlərin vacibliyindən, milli-mənəvi dəyərlər və radikalizmə qarşı mübarizə metodlarından danışılıb. Qeyd edilib ki, layihələr çərçivəsində sağlam dini biliklərə söykənən silsilə maarifləndirmə tədbirləri həyata keçirilməkdədir. Dini



radikalizmin tarixi kökləri və onun ictimai münasibətlərə, milli-mənəvi dəyərlərimizə zərərlərinin də müzakirə mövzusu olduğu tədbirlərdə dövlət başçısının dini icmalara dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı maliyyə yardımının ayrılması barədə Sərəncamı dövlətin dinə qayğısının çoxsaylı nümunələrindən biri olduğu vurğulanıb, layihələrin həyata keçirilməsində göstərdiyi dəstəyə görə Dövlət Komitəsinə minnətdarlıq ifadə olunub.









# "Uşaq hüquqları aylığı"na həsr edilmiş tədbirlər keçirilib



Oktyabrın 22-də "Uşaq hüquqları aylığı" çərçivəsində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Lənkəran bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Lerik rayon Monidigah kənd məscidinin dini icmasında "İslamda uşaq hüququna verilən dəyər" mövzüsündə tədbir keçirilib.

Müəllimlər və şagirdlərin iştirak etdiyi tədbirdə DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin aparıcı məsləhətçisi Azər Həsənov, Lerik rayon Monidigah kənd tam orta məktəbinin direktoru Şöyüb Babayev, dini icma sədri Mədət Abdullayev çıxış ediblər.

Qeyd olunub ki, İslam dinində uşaq hüququna böyük dəyər verilir. Belə ki, dinimiz insanların qəlbində uşaqlara qarşı sevgi, rəğbət, mərhəmət və məhəbbət hisslərini aşılayır.

Tədbirdə o da qeyd olunub ki, uşaq hüquqlarının müdafiəsinə dövlət təminat verir. Bununla bağlı bir sıra mühüm qanunlar, dövlət proqramları qəbul edilib.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Sumqayıt bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə Xızı rayonu Giləzi kənd tam orta məktəbində "Uşaq hüquqları aylığı" çərçivəsində "Milli-mənəvi dəyərlərimiz və uşaqlar" mövzusunda tədbir keçirilib. Tədbiri giriş sözü ilə məktəbin direktoru Svetlana Rüstəmova açıb.

Komitənin Sumqayıt bölgəsi üzrə şöbəsinin əməkdaşı Elnur Kəlbizadə "Uşaqlar və milli-mənəvi dəyərlərimiz" mövzusunda məruzə edərək, milli-mənəvi dəyərlərimiz barədə danışıb.

Daha sonra şöbənin əməkdaşları Cahid Qasımzadə, Orxan Göyüşlü və Ülvi Məmmədov mövzu ilə bağlı çıxış ediblər.

* * *

"Uşaq Hüquqları Aylığı" çərçivəsində daha bir tədbir oktyabrın 26-da DQİDK-nın Zaqatala Bölgəsi üzrə şöbəsi və Zaqatala Rayon Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə Zaqatala şəhər Humanitar Fənlər Gimnaziyasında "Milli-mənəvi dəyərlərimizdə uşaq hüquqları" mövzusunda keçirilib.

Gimnaziyanın müəllim kollektivi və şagirdlərinin iştirak etdiyi tədbirdə DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsinin müdiri Mehman İsmayılov və Zaqatala Rayon Təhsil Şöbəsinin inspektoru Rəna Abdurəhmanova mövzu ətrafında çıxış ediblər. Tədbirdə dünyanın müxtəlif ölkələrində və Azərbaycanda uşaq hüquqları ilə bağlı qəbul olunan qərarlar, milli-mənəvi dəyərlərimizdə və onun əsas tərkib hissələrindən biri olan İslamla uşaq hüquqları ilə əlaqəli müddəalar barədə geniş izahat verilib.

Sonda şagirdlərin mövzu ilə bağlı sualları cavablandırılıb.



# "Nəzarət markası mexanizmi tam tətbiq olunduqdan sonra zərərli dini ədəbiyyatlar nə satıla, nə də yayıla biləcək"



***"Hamımız yaxşı bilirik ki, nisbətən populyar və ya çox satılan dini kitablar piratçılıq yolu ilə istehsal edilərək yayılır. Bu da təbii ki, həm müəllif və istehsalçıların, həm də istehlakçıların hüquqlarının pozulmasına gətirib çıxarır. Dini təyinatlı ədəbiyyat (kağız və elektron daşıyıcılarında), audio və video materiallar, mal və məmulatlar və dini məzmunlu başqa məlumat materialları ilə bağlı isə yuxarıda qeyd etdiklərimizlə yanaşı, onların tərkibindəki zərərli fikirlərin olması problemi vardı".***

***Bu sözləri milli.az-a açıqlamasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov bildirib.***

Şöbə müdirinin sözlərinə görə, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində Dinşünaslıq ekspertizasına təqdim olunmuş dini təyinatlı ədəbiyyatlar müvafiq yoxlamadan keçirilir, amma bütün bunlara baxmayaraq, qaçaq yolla ölkəyə gətirilən və istehsal olunan dini məzmunlu materialların mövcudluğu hələ də qalmaqda idi: "Hələ 90-cı illərdən istehsal olunmağa başlayan bu səpkili ədəbiyyatların mütləq əksəriyyəti dövriyyədən çıxarılsa da, problem tam həllini tapmayıb. Bu baxımdan bir neçə il bundan öncə ən optimal çıxış yolları üzərində düşünüldü və qərara alındı ki, digər bir neçə strateji vasaitlərlə yanaşı, dini təyinatlı ədəbiyyat (kağız və elektron daşıyıcılarında), audio və video materiallar, mal və məmulatlar və dini məzmunlu başqa məlumat materiallarına nəzarət markaları tətbiq olunsun. Bunun üçün "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" və "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunlarda müvafiq qeydlər yer aldı və daha sonra Nazirlər Kabinetinin "Nəzarət markasının forması, uçotu, istifadəsi və verilməsi Qaydaları" təsdiq edilməsi haqqında 191 saylı qərarı ilə nəzarət markasına aid olan bir sıra məsələlərə aydınlıq gətirildi".

N.Məmmədov qeyd edib ki, bu istiqamətdə bir sıra tədbirlərin görülməsi nəzərdə tutulur: "Dini təyinatlı ədəbiyyat (kağız və elektron daşıyıcılarında), audio və video materiallar, mal və məmulatlar və dini məzmunlu başqa məlumat materiallarının nəzarət markaları ilə markalanması prosesi yeni başlayır. Biz bu məsələyə çox ciddi yanaşırıq. Hazırda bununla bağlı işlərimiz davam edir. Öncə onu qeyd edək ki, qaydalara əsasən, dini təyinatlı ədəbiyyat (kağız və elektron daşıyıcılarında), audio və video materiallar, mal və məmulatlar və dini məzmunlu başqa məlumat materiallarına yapışdırılacaq nəzarət markaları Dövlət Komitəsi tərəfindən verilir. Yapışdırılan nəzarət markasının üzərində "DİNİ TƏYİNATLI" sözləri yazılıb. Məlumat üçün qeyd edək ki, nəzarət markaları yalnız nəşrinə və idxalına öncədən Dövlət Komitəsi tərəfindən razılıq verilmiş dini ədəbiyyatlara tətbiq ediləcək. Çap olunmuş dini ədəbiyyatların siqnal nüsxələri ilə birlikdə Dövlət Komitəsinə ərizə ilə müraciət etmək lazımdır. Ərizəçi ilə Dövlət Komitəsi arasında bağlanılmış müqavilə əsasında nəzarət markası götürüləcək dini təyinatlı mallara yapışdırılır. Bununla yanaşı, Nazirlər Kabineti tərəfindən bir nəzarət markası üçün 2 qəpik rüsum müəyyən edilib. Dini ədəbiyyatların sayına uyğun olaraq dövlət büdcəsinə köçürülmüş rüsumun qəbzi də ərizəyə əlavə edilir. Biz artıq bu prosesə başlamışıq. Oktyabr ayının əvvəlindən etibarən ölkədə istehsal olunan bütün dini ədəbiyyat, eləcə də audio-video materiallara nəzarət markaları vurulmağa başlanılacaq. Bu sahə ilə məşğul olan bütün hüquqi və fiziki şəxslərdən xahiş edirik ki, nəzarət markalarını əldə etmək üçün Dövlət Komitəsinə müraciət etsinlər. Təbii ki, bu proses təkcə nəzarət markalarını verməklə yekunlaşmır. Qanunvericiliyin tələbləri çərçivəsində onların tətbiqinə də nəzarət ediləcək və hüquq pozuntusuna yol vermiş şəxslər ciddi cəzalandırılacaq".

Şöbə müdirinin fikrincə, bu istiqamətdə atılan bütün addımlar vətəndaşlarımızın sağlam dini ədəbiyyatla təmin edilməsi ilə yanaşı, piratçılığın, vergi hüquqpozmalarının qarşısını alacaq, əqli mülkiyyət hüquqlarının qorunmasında da faydalı olacaq: "Hüquqi və fiziki şəxslərin zəhməti hesabına başa gələn hər hansı bir ədəbiyyatın piratçılıq yolu ilə çoxaldılıb satılmasının qarşısı alınacaq. Zərərli dini ədəbiyyatlar bu prosesdən tam kənarda qalacaq. Nəticədə zərərli dini ədəbiyyatlar heç yerdə nə satıla, nə də yayıla biləcək. Üzərində nəzarət markası olan dini təyinatlı ədəbiyyat oxucusunda etibar, güvən formalaşdıracaq. Nəzarət markası mexanizmi tam tətbiq olunduqdan sonra hər bir vətəndaş üzərində müvafiq marka olan dini ədəbiyyatı oxuyacaq, ona təklif olunan digər ədəbiyyatdan isə imtina edəcək. Bu da o deməkdir ki, vətəndaşımız kitabın içini bilmədən də nəzarət markası sayəsində onun mətninin zərərli olub-olmadığını müəyyən edə biləcək".

Qeyd edək ki, Azərbaycanda dini məlumatların yayılması sahəsinə nəzarət gücləndirilməsi və din sahəsində mütəxəssislərin hazırlanmasına diqqətin artırılması məqsədilə Milli Məclis tərəfindən "Dini etiqad azadlığı haqqında" Qanuna və "Kütləvi informasiya vasitələri haqqında" Qanuna dəyişikliklər edilməsi nəzərdə tutulur.

Milli Məclisdən Milli.Az-a verilən məlumata görə, "Dini etiqad azadlığı haqqında" Qanunun 29-cu maddəsinə (Müvafiq icra hakimiyyəti orqanı) edilməsi nəzərdə tutulan əlavəyə görə, bundan sonra müvafiq icra hakimiyyəti orqanı dini mərkəzdən və dini idarələrdən və digər dini qurumlardan dini fəaliyyətə dair məlumatları və maliyyə hesabatları da ala biləcək.

Xatırladaq ki, mövcud qanunvericiliyə görə, müvafiq icra hakimiyyəti orqanı dini mərkəzdən, dini idarələrdən və digər dini qurumlardan zəruri məlumatları alır.

Qanunun adıçəkilən maddəsinə daha iki əlavənin edilməsi nəzərdə tutulur. Əlavələrə əsasən, müvafiq icra hakimiyyəti orqanı nəzarət markası ilə markalanmış dini təyinatlı ədəbiyyatın (kağız və elektron daşıyıcılarında), audio və video materialların, mal və məlumatların və dini məzmunlu başqa məlumat materiallarının satışı üzrə ixtisaslaşdırılmış satış məntəqələrində "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanuna uyğun olaraq yoxlamalar aparacaq.

Dəyişikliklərə əsasən, həmin orqan din sahəsində mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılması üçün tədbirlər görəcək, ixtisasartırma kurslarını təşkil edəcək.

Bundan başqa, parlamentdə "Kütləvi informasiya vasitələri haqqında" Qanunun 14-cü maddəsinə (Kütləvi informasiya vasitəsinin təsis edilməsi) də dəyişiklik ediləcək. Dəyişiklik dini mətbu nəşrlərin təsis edilməsi ilə bağlı müvafiq icra hakimiyyəti orqanının rəyinin alınmasını nəzərdə tutur.

Belə ki, maddəyə ediəcək əlavəyə görə, bundan sonra dini mətbu nəşrlərin təsis edilməsi ilə bağlı sənədlərə dini mətbu nəşrlərin təsis edilməsi ilə bağlı müvafiq icra hakimiyyəti orqanının rəyi də əlavə olunmalıdır.

# Rüstəm Ramazanov: "Bəzi dairələrin reallığı əks etdirməyən fikirlər yayması qəbuledilməzdir"

**Noyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə növbəti seçkilər keçiriləcək. Seçkilər yaxınlaşdıqca bəzi mətbu orqanlarda müxtəlif səpkili fikirlər səslənir. Təəssüf ki, bu fikirlər bəzən cəmiyyətdə ajiotaj yaratmağa, ictimai rəyi çaşdırmağa yönəlir. Son zamanlar cəmiyyətin dindar kəsimini düşünülmüş şəkildə bu çirkin niyyətlərə alət etmək cəhdlərinə də rast gəlirik. Ayrı-ayrı şəxslər dindarlar adından çıxış edərək, onların səsvermədə iştirak etməyəcəkləri və seçkiləri baykot edəcəkləri haqqında cəfəng iddialar səsləndirirlər.**

Məsələyə münasibət bildirən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Təhlil və proqnozlaşdırma şöbəsinin müdiri vəzifəsini icra edən Rüstəm Ramazanov qeyd edib ki, bəzi dairələrin reallığı əks etdirməyən bu cür fikirlər yayması qəbuledilməzdir. Çoxəsrlik tarixi köklərə malik mənəvi dəyərlərimiz və onun özəyini təşkil edən müqəddəs dinimizdən belə uğursuz cəhdlərdə vasitə kimi istifadə olunması təşəbbüsü dərin təəssüf hissi doğurur. Ölkə hüdudlarından kənarda özlərinə havadarlar axtaran, dini siyasiləşdirən şəxslərin, xüsusilə parlament seçkiləri öncəsi Azərbaycan dindarları adından əsassız fikirlər səsləndirməsi bəzi dairələrin bəd niyyətləri üçün dini inancdan yararlanmaq istəyindən xəbər verir.

Rüstəm Ramazanov bildirib ki, demokratik, hüquqi, dünyəvi dövlət olan Azərbaycanda hansısa şəxsin, xüsusilə də əsl məqsəd və məramları bəlli olmayan dairələrin təsirində olan qeyri-legitim qurumlar, yaxud özlərini belə qurumların "rəhbər"ləri kimi təqdim edənlərin ölkə dindarları adından danışmağa nə hüquqi, nə də mənəvi haqqı var. Eyni zamanda özlərini "din alimi" kimi təqdim edənlərin başqalarının adından qeyri-obyektiv fikirlər yaymaq cəhdləri özlüyündə mənəvi və hüquqi məsuliyyət məsələsidir. Bu mövzuda çoxkonfessiyalılığı ilə səciyyələnən



ölkəmizdə mövcud olan dini mərkəz, dini konfessiyalar və onların rəhbərləri münasibət bildirə və dindarlar adından danışa bilərlər. Birmənalı şəkildə demək olar ki, respublikamızda fəaliyyət göstərən dini icma və qurumlar seçki prosesində yaxından iştirak etməklə, özlərinin vətəndaşlıq borcunu yerinə yetirəcəkdir. Azərbaycan dövləti bütün sahələrdə uğurla inkişaf edir və seçicilər inkişafa, rifaha, sabitliyə səs verəcəklər.

# Yüz il əvvəl yoxa çıxmış qədim dinlər

***Qədim dünyada çoxlu sayda din və inanc sistemi mövcud olmuşdur. Amma bu gün onların təbliğ olunduğu məbədlər dağıdılmış və ya səhra qumları altında qalmış, qədim allahlar isə çoxdan yaddaşlardan silinmişdir. Aşağıda haqqında danışacağımız din və inanclar Xristianlıq, Hinduizm və İslamdan xeyli əvvəl ortaya çıxsa da, çoxu yüz illərlə əvvəl tarixin zülmətinə qərq olmuşlar.***



**1. Fin bütpərəstliyi**

Fin bütpərəstliyi Xristianlıq yaranmamışdan çox əvvəl Finlandiyanın yerli dini olmuşdur. Bu dinin kökündə şamanizm və əcdadlara etiqad dayanır. Qonşu ölkələrdə olduğu kimi, finlər də sözün qüdrətinə böyük önəm verirdilər. Təbiətə sıx bağlı olduqlarından hesab edirdilər ki, hər şeyin, hətta ağacların və qayaların belə, ruhu var. Bugünkü finlərin əcdadları elə güman edirdilər ki, dünya sualtında üzən ördəyin yumurtasından yaranmışdır. Bu dində səma və ildırım tanrısı Ukko baş tanrı idi. Onun şərəfinə aprelin 4-ü bayram kimi qeyd olunurdu və bu tarix fin təqvimində əlamətdar gün sayılırdı.

**2. Kənan dini**

İordaniya çayı ilə Aralıq dənizi arasında məskunlaşmış kənanlılar barəsində çox az məlumat vardır. Tövrat və İncilə əsasən yalnız o məlumdur ki, onlar israillilərin daimi düşməni olublar. Bununla belə, 1927-1937-ci illərdə Suriyanın şimal sahillərində kənanlılara məxsus



çoxlu lövhələr tapılmışdır. Kənanlılar çoxallahlılığa, politeist dinə sitayiş etmişlər. Bu tanrılar arasında ən əsasları ali tanrı El və onun oğlu, ildırım və yağış tanrısı Baal hesab olunurdu. Baal və ölüm tanrısı Mot arasında baş vermiş döyüş barəsindəki mif olduqca məşhurdur. Qonşu təriqətlərin təsirindən və İsrail tərəfindən kənanlıların istilasından sonra bu din tədricən yoxa çıxmışdır.

**3. Atonizm**

Atonizm tarixdə məlum olan ilk



monoteist dindir. Qədim Misirdə sonradan özünü Exnaton adlandırmış firon IV Amenhotep tərəfindən yaradılmışdır. Bu din e.ə. XIV əsrdə təxminən 20 il müddətinə Qədim Misirin rəsmi dini olmuşdur. Bu dinin yaranmasından əvvəl Aton barəsində çox az məlumat var idi, sadəcə əvvəllər dairəşəkilli günəşi belə adlandırırdılar. Başlanğıcda Atonizmdə digər Misir tanrılarına sitayiş edilsə də, sonradan onlardan imtina etmişdilər. Hesab olunurdu ki, yalnız Exnaton Atonla ünsiyyətə girə və onun hökmünü başqalarına çatdıra bilər. Fironun ölümündən dərhal sonra isə misirlilər öz əvvəlki inanclarına qayıtdılar.

**4. Minoy dini**

Konkret adı olmayan daha bir politeist dinə Krit adasında bir vaxtlar qədim



sivilizasiyanın daşıyıcıları olmuş Minoy xalqı sitayiş etmişdir. Müasir alimlər hesab edirlər ki, bu din təbiətlə sıx əlaqədar olmuşdur. Adalılar qadın ilahəyə sitayiş etmiş və onun şərəfinə müasir rodeonu xatırladan müxtəlif müsabiqələr keçirmişlər. Son qazıntılar zamanı sübut olunmuşdur ki, Minoy xalqı insanların qurban edilməsi ayinlərində iştirak etmişlər.

**5. Mitraizm**

Mitraizm Avropaya Böyük İsgəndərin fəthindən sonra İrandan



gəlmişdir. Roma əsgərləri arasında olduqca məşhurlaşan bu din zamanla qədim romalıların mistik ayinlərinə çevrilmişdir. Təəssüf ki, Mitraizm haqqında heç bir məlumat yoxdur. Bu dinin asket məbədləri yerin altında tikilirdi və ölüm ilə qorxudaraq kənar şəxsləri oraya buraxmırdılar.

**6. Maniçilik**

Eramızın üçüncü əsrində fars əsilli Mani tərəfindən yaradılmış Maniçilik və



ya Manixeizmə başlanğıcda bidətçi xristian sektası kimi yanaşılsa da, sonralar müstəqil din kimi qəbul edilmişdi. Onun banisi iddia edirdi ki, dünyadakı bütün dinləri, o cümlədən Zərdüştilik, Buddizm və Xristianlığı birləşdirməyi bacarıb. Xeyir və şərin fərqinə əsaslanan Maniçilik guya xilas yolu idi. Onun ən qatı tərəfdarları "seçilmişlər" (bir növ buddist rahiblərini xatırladırdılar) adını alırdılar və dinlərini yaymaq məqsədilə köçəri həyat tərzi keçirirdilər. Orta əsrlərlə Maniçiliyin tərəfdarları təqiblərə məruz qaldığından bu din populyarlığını getdikcə itirdi.

**7. Tenqriçilik**

Dünyada ən qədim dinlərdən biri olan Tenqriçilik e.ə. 3600-1200-ci illərdə tunc dövründə yaranıb. Mərkəzi Asiyanın Altay xalqları tərəfindən yaradılan bu monoteist din əcdadlara sitayişə əsaslanırdı. Bu dinin müqəddəs kitabı yox idi, ancaq məlumdur ki, dindarlar Tenqriyə



inanırdı və atları ona qurban kəsirdilər. Eramızdan əvvəl beşinci əsrdə (dinin çiçəklənməsi dövrü olmasına baxmayaraq) Tenqriçilik tədricən öz populyarlığını itirməyə başladı. Lakin bu gün Qırğızıstanda bəzi siyasətçilər onu dövlət dininə çevirməyə çalışırlar.

**8. Aşurizm**

Assuriya xalqının milli ayinlərin-



dən ibarət Aşurizm demək olar ki, qədim babil dini ilə eynilik təşkil edir. Aralarındakı əsas fərq assuriyaların Marduku deyil, Aşuru ali tanrı hesab etməsi və minlərlə tanrıya inanması idi. Aşurizmdəki bəzi inanclar Yəhudilik və Xristianlığa da keçmişdir. Bu dinlərin hər birində dünyanın yaradılması, Nuhun tufanı, Babil qülləsi haqqında eyni miflər yer alırdı. Həmçinin Aşurizmdə Adəmin birinci arvadı, iblis qadın Lilit haqqında mif mövcuddur. Eramızdan əvvəl təxminən XVIII əsrdə ortaya çıxan bu din Assuriya süquta uğrayana – e.ə. V əsrə qədər öz mövcudluğunu qorumuşdur.

**9. Olmeklərin dini**

Mezoamerika (Meksikanın mərkəzindən Honduras və Nikaraquaya qədər uzanan tarixi mədəni bölgə) ərazisində yaşayan olmek xalqının dini e.ə. 1400-



400-cü illərdə bu sivilizasiya məhv olana qədər mövcud olmuşdur. Olmeklərin yox olma səbəbi bu günə qədər alimlər üçün sirr olaraq qalır. Bu din Şamanizm ilə sıx bağlılığı var idi və olmeklər üçün əsas tanrı Yaquar idi. O, yağışın yağması və məhsuldarlığın bol olmasına cavabdehlik daşıyırdı. Bu dində qurban adəti mövcud idi. Həmçinin kahinlər hallyusinasiya oyadan həblər qəbul edərək "ruhlarla ünsiyyətə girirdilər".

**10. Vedizm**

Qədim hind-ari dini Vedizm eramızdan əvvəl 1500-ci ildən 500-ci illədək mövcud olmuşdur. Müasir hinduist inanc sistemi onun əsasında yaradılmışdır. Bu dinlər eyni müqəddəs mətnlərə sahibdilər. Tanrılar iki sinfə bölünürdü:



təbiət tanrıları və ya devalar; əxlaq tanrıları - asurlar. Vedizm davamçıları üçün şifahi himn böyük əhəmiyyət daşıyırdı. Həmçinin keşişlər müxtəlif ayinlərin keçirilməsində böyük rol oynayırdılar. Vedizmdə heyvanları qurban kəsmək adəti olsa da, bu, çox geniş yayılmamışdı. Vedizmin baş tanrısı İndra idi.

***Hazırladı:***
***Sona HƏMİDOVA***

# Yaradılış sirri

**“...Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!”**

(Muminun, 14)



**(I hissə)**

Bəzən insanın ağlına belə suallar gəlir: Adəm hansı surətdə yaradıldı? Mələklər ona səcdə edərkən şeytan nə üçün etiraz etdi? Adəmdən əvvəl başqa varlıqlar olubmu? Ona öyrədilən isimlər hansılar idi? Şeytanın ona etdiyi vəsvəsə nədən ibarət idi? Adəmin tövbəsi necə qəbul olundu? Adəm övladları yer üzünə necə yayıldı? Həqiqətən Kəbəni ilk dəfə Adəm inşa edib? və s.

Bu barədə məşhur rəvayətdə deyilir: Adəm torpaqdan, zövcəsi Həvva isə onun qabırğasından yaradıldı. Onlar qadağan olunmuş meyvədən yeyib, günah işlətdilər və cənnətdən qovuldular. Buna görə Yer üzünə sürgün edildilər və nəsilləri artıb yayıldı. Bu, həqiqətənmi belədir?

**Torpaqdan yaranış**

Adəmin torpaqdan yaradıldığını Quranın bir çox ayəsi sübuta yetirir. “Ali-İmran” surəsinin 59-cu ayəsində bu barədə deyilir: “Allah yanında İsa da (İsanın atasız dünyaya gəlməsi) Adəm kimidir. Allah onu (Adəmi) torpaqdan yaratdı. Sonra ona: “(Bəşər) ol!” – dedi, o da oldu”. Ayədən göründüyü kimi, Adəm dünya torpağından yaradılmışdır. Lakin çoxlarına görə, Adəm möminlərə vəd olunan Cənnətdə yaradılmış, günah işlətdiyi üçün oradan çıxarılaraq yer üzünə göndərilmişdir. Bu fikirdə olanlar adətən “əl-Bəqərə” surəsinin 36-cı və “Taha” surəsinin 123-cü ayələrinə istinad edirlər. Həmin ayələrdə deyilir: “(Lakin) Şeytan onları azdırıb (buğdadan yedizdirməklə nemətlər içində) olduqları yerdən uzaqlaşdırdı. Biz də (Adəmə, Həvvaya və Şeytana): “Bir-birinizə düşmən kəsilərək (buradan kənar olub yer üzünə) enin! Yerdə sizin üçün müəyyən vaxta qədər (ömrünüzün axırınadək) sığınacaq və yaşayış (dolanacaq) vasitələri var”, - dedik”; “(Allah Adəmə və Həvvaya) belə buyurdu: “Bir-birinizə (siz İblisə və nəslinə, İblis də sizə və nəslinizə) düşmən kəsilərək hamınız oradan (Cənnətdən yerə) enin...”

**Eniş**

“əl-Bəqərə” surəsinin 36-cı ayəsinin orijinal mətnində “ihbitu” kəlməsindən istifadə olunmuşdur ki, bəzi dilçi alimlər onu bir yerdən başqa yerə keçmək kimi şərh etmişlər. Bununla yanaşı, həmin sözün “məqam sahibinin yüksək məqamdan nisbətən aşağı məqama düşmə” mənasının olduğu da bildirilmişdir. Bu mənanı nəzərə alsaq, Adəm və Həvva üçün istifadə olunan “ihbitu” kəlməsini məkan baxımından deyil, mənəvi tənəzzül olaraq qəbul edə bilərik. Eyni kəlmədən “əl-Bəqərə” surəsinin 61-ci ayəsində İsrail övladlarına cəza olaraq şəhərə getmə (enmə) əmri verilməsi (ihbitu mısran) üçün də istifadə olunmuşdur. Deməli, “ihbitu” kəlməsi bir məkandan başqa məkana keçmək mənasını verdiyi kimi, məqam və rütbə baxımından daha aşağı dərəcəyə enmə mənasını da verə bilir.

Təbərinin tarix kitabında Adəmin yaradılışı barədə verilən xəbərə nəzər salaq: “Allah-Təala Adəmi yaratmamışdan öncə Cəbraili bir ovuc torpaq gətirmək üçün Yer üzünə göndərir. Lakin Yer üzü ona deyir: Sənin məndən bir şey əskiltməyindən Allaha sığınıram, buna görə sənə bir şey verə bilmərəm”. Cəbrail Allahın hüzuruna qayıdaraq Yerin bir ovuc torpaq verməkdən imtina etdiyini və bu işdə Ona sığındığını xəbər verir. Cəbraildən sonra Mikail Yer üzünə enir və bir ovuc torpaq ala bilmədən əliboş Allahın hüzuruna qayıdır. Onlardan sonra yer üzünə ölüm mələyi Əzrail enir. O da eyni sözləri eşitdikdə “Mən də Allahın əmrini yerinə yetirməməkdən Ona sığınıram” - deyib Yer üzünün müxtəlif yerlərindən qırmızı, ağ və qara torpaq götürərək Allahın hüzuruna qayıdır. Sonra torpaq xəmir halına gətirilir və qırx gün qaldıqdan sonra Adəm öz surətini alır...”. Həmin mənbədə mövzunun davamı olaraq deyilir: “Allah-Təala Adəmi Öz surətində yaratdı və onun boyu altmış zira oldu (bir zira - dirsəkdən barmaqların ucuna qədər olan məsafə, yəni təxminən 40-50 sm, bu hesabla Adəm peyğəmbərin boyu nə az-nə çox, düz 30 metr olmalı idi)”.

**Adəm**

Burada sual doğuran başqa bir məsələ ortaya çıxır: Əgər Adəm deyildiyi kimi yaradılmışsa, o, hansı yaşda yaradılmışdır? Uşaq olaraq yaradılıb, sonra tədricən böyüyərək qeyd olunan boy-buxuna gəlib çatmışdır, yoxsa elə yaradılışın ilkin mərhələsində həmin boyda olmuşdur? Və əgər belə olmuşsa, onun yaşı necə və hansı hesabla ölçülmüşdür? Yəni uşaqlıq və yetkinlik dövrünü yaşamayan Adəm birdən-birə cavanlıq dövrünə qədəm qoymuş və ömrü həmin dövrdən sonra başlamışdır? Bəs hədis ədəbiyyatına bu kimi məlumatlar haradan və necə sızıb?

Cavabı İslamın və Quran ayələrinin nazil olma tarixini araşdırarkən müəyyən etmək olur. Quran yalnız Adəmin necə yaradıldığından xəbər verir və qeyd olunan məsələlərin üzərində, yəni boyunun nə qədər olması, görünüşü barədə heç bir məlumat vermir. Belə məlumatlara xristian və yəhudi mənbələrində təsadüf olunur. Bunlarla tanış olan bəzi müsəlman hədis alimləri onlara islami rəng verərək Peyğəmbərin (s) və imamların (ə) dilindən nəql etməyə başlayırlar. Beləliklə, müsəlman təfəkküründə Adəm barədə bu kimi təsəvvürlər yer almağa başlayır. Lakin burada üzərində dayanmalı olduğumuz başqa bir məqam var. O da Adəmin bioloji olaraq bizdən fərqli ola bilməməsidir. Belə ki, bunu elmlə sübuta yetirmək istəsək, heç şübhəsiz, əliboş qalarıq. Adəmin Allahın surətində yaradılışına gəlincə, bu məsələ müsəlman alimləri arasında mübahisəyə səbəb olmuşdur. Belə ki, çoxları bunun həqiqi deyil, məcazi mənada deyildiyi fikri üzərində dayanırlar.

**Yaradılış nizamı**

Əgər Adəmin yaradılışı haqqında danışırıqsa, diqqət yetirməli olduğumuz əsas məsələ Allahın yaradılış nizamı barədə təqdim etdiyi bilgilərdir. Biz bu barədə Qurandan üç əsas təməl bilgi əldə edirik. Onlardan biri Allahın yaradılış iradəsinə sahib olub, onu “Ol!” əmri ilə hərəkətə gətirməsidir. “Yasin” surəsinin 82-ci ayəsində deyilir: “Bir şeyi (yaratmaq) istədiyi zaman (Allahın) buyurduğu ona ancaq: “Ol!” deməkdir. O da dərhal olar”. Quranda Allahın yaradıcı sifətini və yaradılış nizamını bəyan edən ifadələrdən biri “Ol” kəlməsidir. Ayənin orijinal mətnində “kun fə yəkun” ifadəsindən istifadə olunmuşdur ki, bu da “Ol! - dedi, o da dərhal oldu” deməkdir. Burada “fə yəkun” kəlməsini biz “olmağa başlar” kimi də mənalandıra bilərik. Belə ki, təbiət və onun üzərində qərar tutan dağların, çayların, dənizlərin, nəbatat və heyvanat aləminin meydana gəlməsi üçün milyon illər vaxt sərf olunub ki, bunu həm də İlahi hikmət tələb edir. Yəni hər bir varlığın yaranış prosesi dəqiq qanunauyğunluq nəticəsində baş verib. Biz Quranda 7-8 yerdə eyni ifadənin oxşar mənada istifadə olunduğunu görürük. Lakin bununla yanaşı, Quranda yaradılışla əlaqəli başqa bir kəlmə ilə də qarşılaşırıq. Bu da “bədəəyəbdəu” kəlməsidir. “əs-Səcdə” surəsinin 7-ci ayəsində buyurulur: (va bədəə xalqəl insani min tin) “...insanı (Adəmi) yaratmağa palçıqdan başladı”. Göründüyü kimi, ayədə yaradılışın mərhələli olduğundan, yəni başlanğıc nöqtəsi olduğundan xəbər verilir. Quran eyni məzmunlu başqa bir kəlmənin - “xələqə” kəlməsinin üzərində də dayanır. Məsələn, yer və göylərin altı günə yaradıldığından söz açılarkən bunun mərhələli olduğu vurğulanır və həmin mərhələ gün kəlməsi ilə ifadə olunur: (innə rəbbəkumul ləzi xələqəs səmavati vəl ərzə fi sittəti əyyamin) “Həqiqətən, Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən...” (Əraf, 54). Yer və göylərin altı gündə yaradıldığını biz Quranın altı ayəsində görürük ki, bu da möcüzə içində başqa bir möcüzə, yəni Quranın riyazi ecazından xəbər verən bir həqiqətdir. Bu ayələrə əsasən İlahi ssenarinin bütün yaradılış aləminə şamil olunduğunu və onun içində insanın da yer aldığını, eləcə də bütün bunların zaman çərçivəsində insana öz təsirini göstərdiyini də qəbul etmək məcburiyyətindəyik.

Yaradılışla əlaqəli olan başqa bir ifadə “bədi” kəlməsidir. Bu, dilimizə yaratma kimi deyil, icad etmə kimi tərcümə olunur. Məsələn, (bədius səmavati vəl ərzi fə iza qəza əmrən fə innəma yəqulu kun fə yəkun) “Göyləri və yeri icad edən (yoxdan yaradan) Odur. Bir işin yaranmasını istədiyi zaman, ona (o işə) yalnız: “Ol !” –deyər, o da (fövrən) olar” (Bəqərə, 117). Bir sözlə, yaradılışla əlaqəli olan bütün ifadələri bir yerə yığdıqda və onlar arasındakı əlaqəni müəyyənləşdirməyə çalışdıqda Quranın yeni ecazları ortaya çıxır ki, hər biri barədə ayrıayrılıqda mütaliə və tədqiqat aparmaq lazımdır.

**Başlanğıc**

Quran üç yerdə bütün məxluqatın ilk olaraq sudan yaradıldığından xəbər verir. Həmin ayələrdən birində buyurulur:



“Məgər kafir olanlar göylə yer bitişik ikən Bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi?!.” (Ənbiya, 30). Burada diqqəti çəkən məqamlardan biri Quranda su kəlməsinin müxtəlif mənalarda, o cümlədən nütfə (sperma) mənasında işlədilməsidir. Məsələn, (va huvəlləzi xələqə minəl məi bəşərən) “İnsanları sudan (nütfədən) yaradan Odur...” (Furqan, 54).

Lakin bütün bunlarla yanaşı, Quran insanın yaradılış prosesinin başlanğıcında torpaq, palçıq və gil kimi ünsürlərdən də söz açır. Bəs bunlar bir araya necə gələ bilir? Bunları başa düşmək üçün biz Quranda eyni həqiqətdən bəhs edən “nəfsin vahidətin” (vahid nəfs) ifadəsini də nəzərdən qaçırmamalıyıq. Bəs vahid nəfs nə deməkdir? Onun mahiyyəti nədən ibarətdir? Vahid nəfs ifadəsi canlı varlıq obrazını təqdim edir. Və bu mərhələ insanın yaradılış prosesində çatdığı son mərhələdir. Yaradılışla qarşımıza çıxan başqa bir məqam tək bir nəfərin deyil, bütün insanların torpaqdan yaradıldığından xəbər verən ayələrdir. Məsələn, “Həcc” surəsinin 5-ci ayəsində oxuyuruq: (xələqnakum min turabin) “...Həqiqətən, Biz sizi torpaqdan yaratdıq...” “Nuh” surəsinin 15-ci ayəsində isə tam fərqli və çox mənalı ifadə istifadə olunur: (vəllahu ənbətəkum minəl ərzi nəbatən) “Və Allah sizi yerdən (torpaqdan) bir bitki kimi göyərtdi”. Göründüyü kimi, yaradılış barədə yeni ifadələr meydan gəldikdə tam fərqli yanaşma tərzləri və yeni suallar da yaranır, Quranı araşdıran hər kəs onların arasındakı əlaqəni üzə çıxarmalıdır...



*İsmayıl ƏHMƏDOV*



# Avropa İttifaqından dörd ərəb ölkəsinə maliyyə yardımı

**Avropa İttifaqı (Aİ) sosial şəraitin yaxşılaşdırılması məqsədilə Əlcəzair, Mərakeş, Livan və İordaniyaya ümumilikdə 365,5 milyon avro maliyyə yardımı göstərəcək.**

Bu barədə Avropa Komissiyası məlumat yayıb. Bildirilir ki, 365,5 milyon avronun 237 milyonu həmin ölkələrdə özəl sektoru dəstəkləmək üçün istifadə ediləcək. Bu vəsaitlə yeni iş imkanları yaradılacaq, peşə təhsili veriləcək, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin inkişafına dəstək göstəriləcək. 100 milyon avro isə səhiyyə xidmətləri və yoxsulluqla mübarizə sahələrində əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına sərf ediləcək.

Qalan 28,5 milyon avro isə Əlcəzair, Mərakeş və Livanda qeyri-hökumət və mühakimə sistemi kimi sahələrdə yerli islahatları dəstəkləməyə yönəldiləcək.

Bu vəsaitdən Əlcəzair 25 milyon, Mərakeş 180,5 milyon, Livan 25 milyon və İordaniya isə 135 milyon avro alacaq.

## Putin: "MDB ölkələrinə təhdidlər azalmır, köhnə problemlərə yenilər əlavə olunur"



"MDB ölkələrinə təhdidlər azalmır. Əksinə problemlər daha da dərinləşir, köhnələrə yenilər əlavə olunur".

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya prezidenti Vladimir PutinMDB ölkələrinin təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri ilə görüşündə deyib.

"Əfqanıstanda və Yaxın Şərqdə vəziyyətin necə olduğunu başa düşürük",- deyə Rusiya prezidenti qeyd edib.

Qeyd edək ki, Moskvada MDB ölkələri təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının 39-cu iclası keçirilib. İclasdan sonra V. Putin onları qəbul edib. Görüş zamanı MDB məkanında antiterror fəaliyyətinin əsas aspektləri, Suriya və Əfqanıstanda hazırlıq keçən terrorçularla mübarizə məsələləri müzakirə olunub.

MDB ölkələri təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurası 1997-ci il martın 28-də MDB dövlət başçıları Şurasının qərarı ilə yaradılıb.

## İraq oktyabrın 30-da Vyanada Suriya üzrə danışıqlarda iştirak edəcək

İraq Suriyaproblemi ilə bağlı planlaşdırılan beynəlxalq görüşdə iştirak edəcək.

APA-nın "Röyters"ə istinadən verdiyi məlumata görə, bunuİraq Xarici İşlər Nazirliyindən bildiriblər.

Qeyd edək ki, sözügedən görüş oktyabrın 30-da Vyanada keçiriləcək. Danışıqlarda İran xarici işlər naziri Cavad Zərifin rəhbərlik etdiyi nümayəndə heyətinin də iştirak edəcəyi bildirilir.



## Dövlət Departamenti: İran Suriya böhranının nizamlanmasında əsas tərəfdaş ola bilər

.İran Suriyadakı vəziyyətin nizamlanmasında əsas tərəfdaş ola bilər.

APA-nın "RİA Novosti"yə istinadən verdiyi xəbərə görə, bu barədə ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Con Kirbi bildirib.

"İran ola bilər", deyə Kirbi brifinqdə jurnalistin "ABŞ İranı Suriyaböhranının nizamlanmasında əsas tərəfdaş sayırmı?" sualına cavabında bildirib.

Qeyd edək ki, İran oktyabrın 29-da Suriya böhranının nizamlanmasına dair Vyanada keçiriləcək beynəlxalq danışıqlarda iştirak etmək üçün dəvət edilib.

## Moskvada "Din və dünya" mövzusunda forum keçiriləcək




Bu gün Rusiyanın paytaxtında "Din və dünya" mövzusunda III Moskva Beynəlxalq Forumu keçiriləcək.

Moskva hökumətinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, forum çərçivəsində müasir dünyada dinin rolu müzakirə ediləcək. Tədbirin təşkilatçısı Moskva şəhər milli siyasət, regionlararası əlaqələr və turizm departamentidir.

Forumda xristian, islam, buddizm və iudaizm dinlərinin nümayəndələri iştirak edəcəklər. Təşkilatçılar, həmçinin MDB-nin Dinlərarası Şurasının həmsədri, Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin iştirakını gözləyirlər.

Forum iştirakçılarının diqqət mərkəzində Yaxın Şərqdəki vəziyyət və bu regionda dinlərarası sülhə nail olunması, dini xeyriyyə təşkilatlarının fəaliyyəti, ənənəvi mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanılması məsələləri olacaq.

Xatırladaq ki, "Din və dünya" II Moskva Beynəlxalq Forumu keçən ilin oktyabrında keçirilib. Forum çoxlu sayda iştirakçıları, o cümlədən müxtəlif konfessiyaların nümayəndələrini, dinşünasları, siyasətçiləri, jurnalistləri, ictimai xadimləri bir araya gətirib.

## ABŞ Çinin süni adaları zonasına yeni hərbi gəmilər göndərməyə hazırlaşır

ABŞ Hərbi Dəniz Qüvvələri Çinin Cənubi-Çin dənizi akvatoriyasındakı süni adaları zonasına yeni hərbi gəmilər göndərəcək.

Çin Xalq Respublikasının Xarici İşlər Nazirliyinin məlumatına əsasən ABŞ-ın "Lassen" esminesi Çin hökumətinin razılığı olmadan qeyri-qanuni surətdə Cənubi-Çin dənizi akvatoriyasındakı mübahisəli Nanşa süni adaları zonasına daxil olub. Nazirlik Çin tərəfinin Amerika esminesini nəzarətdə saxladığını, onu izlədiyini və gəmiyə xəbərdarlıq edildiyini bildirib. XİN, həmçinin ABŞ-a qəti etirazını bildirərək, onların fəaliyyətinin Çinin suverenliyini pozduğunu və təhlükəsizliyini təhdid etdiyini vurğulayıb.

Hadisədən bir qədər sonra Pentaqon Cənubi-Çin dənizində aparılan əməliyyatı təsdiqləyib. ABŞ-ın müdafiə naziri Eşton Karter əməliyyatın təfərrüatlarını açıqlamasa da, onun yaxın həftələrdə və aylarda da davam edəcəyini bildirib.



# İsveç alimi: Azərbaycanın tarixi köklərə söykənən tolerantlıq ənənələri var



Stokholmda Azərbaycanın İsveçdəki səfirliyinin təşkilatçılığı ilə "Dəyişən regionda Azərbaycan" adlı konfrans keçirilib.

Konfransda KİV nümayəndələri, habelə Stokholmda fəaliyyət göstərən "Foreign Press Assosiation" (FPA) təşkilatının üzvləri iştirak ediblər. FPA təşkilatı dünyanın 60-dan artıq xəbər agentliyinin 100-dən çox jurnalistini birləşdirir.

Tədbirdə Stokholmda yerləşən Təhlükəsizlik və İnkişaf Siyasəti İnstitutunun direktoru, alim Svante Kornel və tanınmış israilli ekspert Arye Qut məruzə ilə çıxış ediblər.

Konfransın keçirilməsində məqsəd xarici media nümayəndələrini Azərbaycanın müstəqillik illərində qət etdiyi yol, qazandığı uğurlar və qarşılaşdığı problemlərlə bağlı məlumatlandırmaq olub.

Azərbaycanın İsveçdəki səfiri Adış Məmmədov konfransda ölkəmizin müstəqillik tarixindən danışıb və regionun siyasətində oynadığı rol haqqında məlumat verib. O deyib ki, 24 il əvvəl müstəqilliyini bərpa edən Azərbaycan bu zaman kəsiyi ərzində demokratik cəmiyyətin formalaşdırılması, hüquqi dövlətin qurulması və güclü iqtisadi siyasətin həyata keçirilməsində bir çox dünya ölkələrinin 100 il ərzində keçdiyi yolu qısa bir müddətdə uğurla qət edib.

Ölkəmizin demokratiya ənənələrindən söz açan səfir bildirib ki, şərqdə ilk demokratik respublika Azərbaycanda qurulub, Avropada qadınların seçki hüququ olmadığı halda Azərbaycanda qadınlara bu hüquq verilib.

Diplomat Azərbaycanın Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını qeyd edib. Azərbaycanın Avropa ölkələri ilə bərabərhüquqlu əlaqələr qurmaq istədiyini vurğulayan A.Məmmədov Avropa tərəfindən Azərbaycana qarşı münasibətdə ikili standartlar siyasətinin tətbiq olunduğunu təəssüflə bildirib. O, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etməsini və Ermənistana qarşı heç bir cəza tədbirinin görülməməsini Aİ-nin beynəlxalq hüquqa münasibətdə hörmətsizliyinin nümunəsi olduğunu qeyd edib.

Tanınmış isveçli alim Svante Kornel deyib ki, Azərbaycanın tarixini və bu gününü tam bilmək üçün ölkənin yerləşdiyi mürəkkəb regionu bütövlükdə nəzərdən keçirmək lazımdır.

O, Azərbaycanın bir çox mənada Avropa ölkələri üçün açar rolunu oynadığını, lakin yerləşdiyi coğrafi məkanda çoxlu münaqişələrin baş verdiyini və böyük maraqların toqquşduğunu qeyd edib. Bütün bunlara baxmayaraq, ölkəmizin tarixi köklərə söykənən tolerantlıq ənənələrinin olduğunu bildirən alim bu sahədə Azərbaycan hakimiyyətinin böyük iş gördüyünü qeyd edib.

Azərbaycanın bir çox məsələlərdə nadir olduğunu qeyd edən Svante Kornelin fikrincə, müsəlmanların çoxluq təşkil etdiyi Azərbaycanın Avropa Şurası, ATƏT və Avropa İttifaqı kimi Qərb institutları ilə əməkdaşlığı olduqca maraqlıdır. Bütün bunlara baxmayaraq bu gün Qərbin Azərbaycanla ikitərəfli əlaqələrə lazımı diqqət göstərmədiyini qeyd edən S.Kornel bunun böyük səhv olduğunu bildirib. İsveçli alim deyib: "Biz görürük ki, Dağlıq Qarabağ münaqişəsinə oxşar münaqişələrlə bağlı Qərb ölkələri daha ciddi addımlar atırlar, lakin Azərbaycan torpaqlarının 20 faizinin 20 ildən çoxdur ki, işğal altında olmasına kifayət qədər diqqət yetirilmir. Belə olduqda, azərbaycanlılar çox asanlıqla bu münasibətin ikili standart olduğunu sübut edə bilər".

Sonra beynəlxalq münasibətlər üzrə tanınmış israilli ekspert Arye Qut ölkəmizlə bağlı maraqlı sənədli təqdimatla çıxış edib.

Azərbaycanda əhalinin əksəriyyətini müsəlmanların təşkil etdiyini deyən ekspert buna baxmayaraq ölkəmizdə həm də müxtəlif dinlərə etiqad edənlərin və çoxlu sayda etnik qrupların nümayəndələrinin yaşadığını bildirib. O vurğulayıb ki, qədim vaxtlardan, İpək Yolu dövründən bu günə qədər Azərbaycanda milli azlıqlara hörmət və tolerantlıq ölkənin inkişafının əsası olub.

İsrailli ekspert qeyd edib ki, Azərbaycan hökuməti bu ənənələri daha da inkişaf etdirmək üçün son illər sistematik iş aparır. Buraya Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin




təsis edilməsini, müxtəlif forum və konfransların keçirilməsini daxil etmək olar.

Ermənistanın Azərbaycan torpaqlarının 20 faizini işğal etdiyini xatırladan ekspert bununla beynəlxalq hüquq normalarının kobudcasına pozulduğunu vurğulayıb və dünya ictimaiyyətinin bu məsələyə diqqətinin artırılmasının vacib olduğunu qeyd edib.

Erməni silahlı birləşmələrinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı siyasəti barədə danışan Arye Qut deyib: "Xocalıda ağlasığmaz vəhşilik və barbarlıqla törədilmiş soyqırımı XX əsrin sonlarında ən dəhşətli faciələrdən biri olub. Tarixi fakt budur ki, erməni silahlı qüvvələri və muzdlu dəstələri Xocalı şəhərini və onun ətrafını tərk etməyə macal tapmayan səhər sakinlərindən faktiki olaraq heç birinə rəhm etməyib. Erməni silahlı dəstələrinin vəhşiliyi nəticəsində qocalar, uşaqlar, qadınlar daxil olmaqla 613 nəfər qətlə yetirilib, 487 nəfər şikəst olub, 1275 dinc sakin əsir götürülərək misli görünməmiş əziyyətlərə və işgəncələrə məruz qalıb. Bu faciə bütün bəşəriyyətə qarşı cinayətdir. Xocalı şəhərinin mülki əhalisinin bilərəkdən kütləvi şəkildə məhv edilməsinin yeganə səbəbi bütün bu insanların azərbaycanlı olması idi.

Tədbirin sonunda S.Kornelin ingilis dilində çap olunmuş "Azərbaycan müstəqillikdən bəri" adlı kitabı, səfirlik tərəfindən hazırlanmış Dağlıq Qarabağ münaqişəsi ilə bağlı buklet və disklər, Azərbaycanın sosial-iqtisadi inkişafına dair materiallar jurnalistlərə təqdim edilib.

# ... sonunda da söz qalacaq

*(Məhərrəmlik ayında düşüncələr)*

Aşura hadisəsindən sonra Yezid Həzrət Zeynəbdən (ə) soruşdu ki, necə oldu, gördün, Allah-Təala sizinlə necə rəftar etdi?! Həzrət Zeynəb (ə) atası Əlinin (ə) şəxsiyyətinin əzəmətinə layiq olan cavab verdi: "Mə ra eytu illə cəmil" – yəni "biz gözəllikdən savayı heç nə görmədik". Bu mətləbin dərin ictimai fəlsəfəsinə varanda Həzrət Zeynəbin (ə) cavabındakı gözəlliyi İslam tarixinin cahanşümul şəxsiyyətlərinin böyüklüyündə, ucalığında, onların həyat amalı, əqidəsi və qayələrində tapırsan. Məhz yenə də bu mətləbin dərinliyinə varıb, düşünəndə, bir daha əmin olursan ki, haqq-ədalətə gedən şah yolu yoxdur. Tarix boyu həqiqi aşiqlər daim əzab-əziyyətdədirlər, zəhmət və həsrət çəkirlər, bəladadırlar.

Bütün zamanlara böyük örnək və dərs olan İslam tarixində elə güclü ictimai məzmun, ictimai qayə kəsb edən nümunələr mövcuddur ki, bugünkü həyatın mənasını, həyatın nəbzini onların varlığında görmək olur. Əslində məqsədimiz Kərbəla vaqeəsinin fəlsəfəsinə varmaq deyil. Çünki əsrlərdir o tarix tədqiq edilir, mənəvi miras olaraq nəsildən-nəsillərə ötürülür. Və artıq zaman-zaman araşdırılaraq təhlil də edilib, buna birmənalı olaraq fəlsəfi don da biçilib.

Bəzən məscidlərdən küçələrə, evlərə dolan əzadarlıq və mərsiyə sədaları son dərəcə xəfif dövrü – uşaqlıq illərini xatırladır insana, həm də əllə toxuna biləcək qədər yaxın, əslində isə heç vaxt qaytara bilməyəcəyin uzaq keçmişi. İmam Hüseynin (ə) və onun yaxınlarının şəhadətinə həsr edilən nohə və mərsiyələrin Bakının qədim məhəllələrinə yayılan səsində sanki uşaqlıq illərinin qohusunu da duyursan...

Sovet ideologiyasının tüğyan etdiyi dövrdə insanların imanlarında sədaqət yaşlı qadınların çarşablarının ətəkləri yellənə-yellənə məscidlərə ziyarətlərində, Məhərrəmlik ayının hər gününə sonsuz ehtiram və həssaslıqla yanaşmalarında, o dövrün şəhadətə çatmış insanları üçün üzərindən uzun əsrlər keçməsinə baxmayaraq, tökülən göz yaşlarında təzahür edirdi. Hələ ürək yanğısı ilə bədahətən deyilən mərsiyələr, nohələr, qəzəllər... Bəzən adama elə gəlir ki, poeziya adına nə duymusansa, uşaqlıqdan, çarşablı qarıların, papaqlı qocaların dilindən duymusan, mərsiyələrdən, nohə və qəzəllərdən... Elə mənim üçün ilk poeziya nümunələri də bunlar idi, sirayət edirdi təfəkkürümə, təxəyyülümə. Buradakı əsl səmimiyyət, ürək yanğısı və irfan hələ uşaq ikən yaddaşıma oturan o səslərin ahəngi və rəngi ilə qətrə-qətrə öz əsərini qoyurdu ruhumda.

İndi Məhərrəmlik ayında məscidlərdən ətrafa yayılan, əks-sədası ilə Bakının qədim məhəllələrinin sıx, darısqal, köhnə küçələrində dalğalanan o şeiriyyət çox uzaqlarda qalan, ötüb-keçən xatirələrlə dolu uşaqlıq illərinə xəfif bir həyəcan, təəssüf hissi yaşadır insanda.

Həqiqətən də şifahi xalq ədəbiyyatı və folklorumuzun bir hissəsini təşkil edən ağılar, matəm nəğmələri, İmam Hüseyn (ə) və onun tərəfdarlarının şəhadətinə həsr edilən mərsiyələr publisistikadan kənar, bəşəri hisslərin carçısı olan əsl sənət nümunələridir. Musiqisi şeiriyyəti ilə birlikdə həyata vəsiqə alan bu poeziya insanın Allahla qarşılaşma anından doğan heyrətin ifadəsidir. Məhz həmin səbəbdəndir ki, onlar ruha qida verməklə yanaşı, həm də insanı mənən təmizləyir, paklayır. Bir payız günündə yağışın təbiəti – ağacları, otları, dağları, daşları qüsulladığı kimi... İnsan ruhu da qüsullanır sanki.

Dünyada millət olaraq taleyimizə, bəxtimizə düşən İslam dininin tarixinin ayrı-ayrı parçaları təsəvvürümüzdə canlanır. Bu tarixdə ictimai məzmun, ictimai qayə kəsb edən nümunələr var ki, bugünkü həyatın mənasını, nəbzini onların varlığında tapmaq olur. Həm də həmin tarixi dövr içindən ictimai məzmun keçən, sözügedən poeziya nümunələrində də tərənnüm edilir. Məsələn, 500 illik bir zaman məsafəsilə bizdən ayrılan böyük eşq və irfan şairi M.Füzulinin "Kərbəla vaqiəsi" də elə dövrə, zamana ən böyük ictimai münasibətdir. Müqəddəs Kərbəla şəhərində dünyaya gələn şair qəlbən İmam Hüseyn (ə) aşiqi idi. O yazırdı: "Hər kim Hüseyn üçün ağlaya, ya bir kimsəni ağlada, vacib ola ona düxulcənnət". Elə Füzuli yaradıcılığının tərbiyəvi əhəmiyyəti müqəddəs dinimizin qayda-qanunlarını, adət-ənənələrini incə bir ustalıqla qələmə alaraq insanlara çatdırmasındadır.

***Ey Füzuli, məskənim çün Kərbəladır, şeirimin,***
***Hörməti hər yerdə vardır, xalq onun muştağıdır.***
***Nə qızıldır, nə gümüş, nə ləl, nə mirvaridir,***
***Sadə torpaqdırsa, lakin Kərbəla torpağıdır.***

Təsadüfi deyil ki, eşq, irfan, həm də böyük qəm şairinin əbədi məkanı İmam Hüseynin (ə) məzarının yanındadır.

Maraqlıdır ki, istedadla həqiqi eşqin vəhdətindən doğan və əsl sənət nümunəsi olan mərsiyələr, qəzələr, nohələr necə yaranır?! - Təbii ki, insan Allaha, əbədiyyətə və ölümə öz münasibətini bildirmək istəyəndə...

Burada dünyanın faniliyi məqamı daha artıq qabardığı üçün onlara bir azacıq da qəm qatılır. Kədərlə qəmdə olan müdriklik əslində mübarizə ruhunun potensialına çevrilir. Hansısa hiss Hüqonun "Səfillər" romanını xatırladır – Paris kommunası həmin nəğmələri özünün inqilabi marşına çevirərək döyüşürdü.

Yəni insan ürəyinin ən incə tellərini titrədən mərsiyələrdəki ali qəm təkcə matəm deyil, həm də xalqımızın, millətimizin, vətən torpaqlarımızın bütövlüyü və gözəl gələcəyi uğrunda qələbə əzmimizin orijinal, poetik ifadəsidir desək, yanılmarıq. İmam Hüseyn (ə) şəhadətinin, Kərbəla torpaqlarının sonsuz qəmi torpaqlarımızda əmin-amanlığımıza hakim durmaq üçün təəssübkeşlik duyğusu, qürur aşılamalıdır bizə. Onun gücü ilə xalqımızın həqiqətlərini eşitmək istəməyən bu kar, bu kor dünyaya haqq sözümüzü deməyə, eşitdirməyə qalxmalıyıq.

Bir də ən ali qəmi ən ali sözə çevirməklə... Onsuz da bir gün yer üzündə hər şey bitəcək. Əvvəlində söz var idi, sonunda da söz qalacaq...

# Bakı metrosunda baş vermiş yanğın hadisəsindən 20 il ötür

**1995-ci il oktyabr ayının 28-də Bakı metropoliteninin "Ulduz" stansiyasından "Nərimanov" stansiyası istiqamətində hərəkət edən qatarda baş vermiş dəhşətli yanğın hadisəsindən 20 il ötür.**



Bununla əlaqədar "Ulduz" stansiyasında Milli Qəhrəman Çingiz Babayevin büstü ziyarət edilib və anım mərasimi keçirilib.

Tədbirdə metropoliten işçiləri, Yasamal rayon İcra Hakimiyyətinin, C.Naxçıvanski adına hərbi liseyin zabit-müəllim və müdavim heyətinin nümayəndələri, neçə-neçə insanı həyatı bahasına xilas edərək şücaət göstərmiş qəhrəmanların valideynləri və yaxınları, eləcə də həmin hadisələri unutmayan sərnişinlər iştirak ediblər.

"Bakı Metropoliteni" QSC-nin mətbuat xidməti və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Nəsimi Paşayev çıxış edərək bildirib ki, itkilərinin sayına görə (289 nəfər həlak olub, 270 nəfər xəsarət alıb) dünya metropolitenləri tarixinin ən dəhşətli faciəsinin qurbanlarının xatirəsi daim ehtiramla yad edilir.

Hərəkət xidmətinin rəis müavini Erşad Musayev, "Ulduz" metro stansiyasının rəisi Şaiq Heydərov hadisə baş verdiyi an köməyə yetişənlərin çox olmadığı bir vaxtda sərnişinlərin rolunu xüsusi vurğulayıb. Bildiriblər ki, C.Naxçıvanski adına hərbi liseyin bölük komandirinin siyasi-tərbiyə işləri üzrə müavini baş leytenant Çingiz Babayev və kursantlar bir vətəndaş, vicdanlı insan və zabit şərəfini uca tutan hərbçi kimi, qara tüstüyə bürünmüş vaqonun salonunu tərk etməyə çalışan insanlara kömək ediblər.

Yasamal rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər üzrə şöbə müdiri Zöhrab Cəfərov həmin dövrün ab-havasına toxunaraq qeyd etdi ki, yenicə müstəqilliyini əldə etmiş, həmin ərəfədə yeni Konstitusiya layihəsinin son müzakirələri gedən ölkə üçün bu hadisə bir sınaq olub. Hadisə zamanı Azərbaycan əsgərinin Qarabağda döyüş meydanında deyil, adi həyatda da şücaətə qadir olduğunu nümayiş etdirməsi isə cəmiyyət üçün əsl qəhrəmanlıq nümunəsidir.

Xatırladaq ki, hadisədən bir həftə sonra Ümummilli Lider Heydər Əliyevin 3 noyabr 1995-ci il tarixli fərmanı ilə, ölümlərindən sonra, Çingiz Babayev Milli Qəhrəman adı, kursantlar Nicat Mürvət oğlu Səfərov, Ruslan Məmməd oğlu İsayev və Samir Nadir oğlu Məmmədova "İgidliyə görə" medalı ilə təltif olunublar.

## Mərkəzi Asiya və Qafqaz İnstitutu: Ermənistanın iqtisadi bəlası

Con Hopkins Universitetinin Beynəlxalq Araşdırmalar İnstitutunun nəzdində fəaliyyət göstərən Mərkəzi Asiya və Qafqaz İnstitutu tərəfindən Natalya Konarzevskanın müəllifi olduğu "Ermənistanın iqtisadi bəlası" adlı məqalə dərc edilib.

Məqalədə Ermənistan iqtisadiyyatının hazırda tənəzzülə məruz qaldığı, 2014-cü ilin sonundan başlayaraq bu ölkənin milli valyutasının sürətlə devalvasiyaya uğradığı və bunun inflyasiya ilə nəticələndiyi qeyd edilir. Pul köçürmələrinin Ermənistanın ümumi daxili məhsulunun 21 faizini təşkil etdiyi və 2014-cü ildə Rusiyadan pul köçürmələrinin 56 faiz aşağı düşdüyü qeyd edilir. Pul köçürmələrinin həcminin azalmasının ölkə əhalisinin həyat şəraitinə mənfi təsir göstərdiyi barədə məlumat verilir.

Rusiyaya ixracın və xarici investisiyaların kifayət qədər azalması, dövlət borcunun artması və büdcə gəlirlərinin aşağı düşməsi fonunda Ermənistan iqtisadiyyatındakı durğunluğun qarşısının alınması üçün imkanların məhdud olduğu vurğulanır. Qeyd olunmalıdır ki, 2015-ci ildə Ermənistanın dövlət borcunun ölkənin ümumi daxili məhsulunun 44,5 faizini təşkil edəcəyi gözlənilir.

Məqalədə, həmçinin "Etihad Airways", "Samsung", "Orange" kimi aparıcı şirkətlərin Ermənistandakı fəaliyyətlərini dayandıracağını elan etmələri əks olunur.

Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun hesablamalarına görə, 2015-ci ildə Ermənistanın iqtisadi artımının zəif və ya mənfi olacağı gözlənilir. Ermənistanın Avrasiya İqtisadi Birliyinə daxil olmasının heç də yaxşı dövrə təsadüf etmədiyi, bunun təşkilatın aparıcı üzvü olan Rusiyanın iqtisadiyyatının zəiflədiyi vaxtda baş verdiyi göstərilir.

2015-ci ilin mayında ABŞ və Ermənistan arasında Ticarət və İnvestisiya Çərçivə Sazişinin imzalanmasına baxmayaraq, iki ölkə arasında ticarət dövriyyəsinin aşağı səviyyədə olmasının bu sazişin iqtisadi faydasını sual altına qoyduğu vurğulanır.

İrana qarşı beynəlxalq sanksiyaların aradan qaldırılması nəticəsində Ermənistanın bu ölkə ilə qeyri-məhdud ticarət və investisiya imkanlarından faydalana biləcəyi, bu xüsusda İran və Ermənistanı Gürcüstanın Qara dəniz limanları ilə birləşdirən dəmir yolu xəttinin rəsmi Yerevan üçün ən vacib layihə olduğu diqqətə çatdırılır.

Ermənistanda elektrik enerjisinin qiymətinin artırılması nəticəsində 2015-ci ilin iyunundan bəri ölkədə baş verən etirazların hökumətin iqtisadi siyasətinə münasibətdə ictimai məyusluğun artdığını əks etdirməsi, Rusiya mediasının bu etirazları ABŞ-ın geosiyasəti ilə əlaqələndirməsi və Ermənistanda antirusiya dalğasının artacağından ehtiyat etməsi bildirilir. Bu istiqamətdə aparılan uzunmüddətli danışıqlardan sonra Rusiya tərəfinin Ermənistana satdığı qazın qiymətini aşağı salmağa razılıq verdiyi və Ermənistana hərbi avadanlıqların alınması üçün 200 milyon ABŞ dolları həcmində kredit ayırdığı əks olunur.

Məqalədə, həmçinin Ermənistan iqtisadiyyatının oliqarx strukturu və aşağı səviyyəli idarəçilik sisteminin iqtisadiyyatın modernləşdirilməsi və gücləndirilməsinə yönəldilmiş istənilən cəhdlərə əngəl olacağı vurğulanır.

## "Boko Haram"ın girov saxladığı 330-dan çox şəxsi azad edilib



Nigeriya ordusunun hərbçiləri ölkədə fəaliyyət göstərən "Boko Haram" terror qruplaşmasının girov saxladığı ən azı 338 nəfəri azad ediblər. Xilas edilən sakinlər arasında səkkiz kişi, 138 qadın, 192 uşaq var.

Nigeriya Silahlı Qüvvələri rəsmilərinin sözlərinə görə, əməliyyat dünən ölkənin şərqində yerləşən Borno ştatında həyata keçirilib. Əməliyyat zamanı hərbçilər təxminən 30 terrorçunu zərərsizləşdiriblər.

## Rusiyalı deputat: İŞİD-in fəaliyyəti faşist təşkilatı yurisdiksiyası altına düşür



Rusiyada senator İqor Çernışov Dövlət Dumasının bugünkü toplantısında İŞİD terror təşkilatının adının hüquqi cəhətdən faşist qruplaşmasına dəyişdirilməsini və bu məsələnin beynəlxalq səviyyədə qaldırılmasını təklif edib: "Qanunvericiliyimizə müvafiq olaraq, İŞİD-in fəaliyyəti artıq terror qruplaşmasının hüquqi müəyyənləşdirmə hüdudundan kənara çıxıb. Mədəni dəyərlərin məhvi, milli əlamətlər üzrə kütləvi qətllər - bütün bunlar faşist təşkilatı yurisdiksiyası altına düşür."

Onun sözlərinə görə, bütün beynəlxalq hüquqi aktlar faşizmlə mübarizə aparmağa çağırır.

Parlamentari Qərbdən olan tərəfdaşlarla, o cümlədən faşizmdən əziyyət çəkən Avropa ilə İŞİD-ə qarşı mübarizə üzrə daha sıx qarşılıqlı fəaliyyət barədə məsələnin müzakirəsini təklif edib.

Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko Şuranın beynəlxalq və qanunvericilik komitələrinə bu məsələ üzərində işləməyi təklif edib.



## *Qumdan dünyanın ən hündür qəsri tikilib*

Mayamidə qumdan dünyanın ən hündür qəsri tikilib.

Hündürlüyü 13,98 metr olan qəsrin tikilməsində 1,8 tondan çox qumdan istifadə olunub. Qəsrin ərsəyə gəlməsində 20-yə yaxın rəssam, o cümlədən məşhur usta Ted Zibert iştirak edib. Tikilidə yalnız su və qumdan istifadə olunub. Qəsr "Ginnesin rekordlar kitabı"na düşüb.

Qəsr "Turkish Airlines" şirkətinin sifarişi ilə tikilib. Aksiya türk aviadaşıyıcısının Mayamidən İstanbula birbaşa reysinin açılışına həsr olunub.



# Tarif Şurası daha 827 dərman vasitəsinin qiymətini təsdiqlədi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi prosesi davam etdirilir.

Tarif (qiymət) Şurasının oktyabrın 28-də keçirilmiş növbəti iclasında daha 827 dərman vasitəsinin qiyməti təsdiqlənib. Ümumilikdə, indiyədək Şura tərəfindən 3010 dərman vasitəsinin qiyməti tənzimlənib ki, bunlardan 1151 dərman vasitəsi təsdiq edilmiş qiymətlərlə artıq satışdadır. Qiymətləri təsdiqlənmiş digər 1110 dərman vasitəsinin qiyməti dekabrın 1-dən, 749 dərman vasitəsinin qiyməti isə dekabrın 21-dən qüvvəyə minəcək.

Beləliklə, indiyədək qiymətləri tənzimlənmiş dərman vasitələrinin satışda olan qiymətləri ilə müqayisədə 50 faizinin qiyməti 2 dəfədən çox, 26 faizinin qiyməti 3 dəfədən çox aşağı salınıb, ümumilikdə 96 faizinin qiymətləri endirilib.

Tarif (qiymət) Şurasının müvafiq qərarlarına əsasən, hər qrup təsiredici maddə üzrə yeni qiymətlərin qüvvəyə minmə tarixindən etibarən həmin qrupa aid olan, lakin qiymətləri hələlik təsdiq edilməyən dərman vasitələrinin satışı yalnız onların qiyməti təsdiq edildikdən sonra həyata keçirilə bilər.

Qərarlar və dərman vasitələrinin siyahıları Tarif (qiymət) Şurasının rəsmi internet saytının (www.tariff.gov.az) "Şuranın Qərarları" və "Dərman vasitələri" bölmələrində yerləşdirilib.

Dərman vasitələrinin mövcud və Tarif (qiymət) Şurası tərəfindən təsdiq edilmiş qiymətlərinin müqayisəli cədvəli məlumata əlavə olunur.

Tarif (qiymət) Şurasının oktyabrın 28-də keçirilmiş iclasında, həmçinin malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertiza xidmətlərinin tariflərinə yenidən baxılıb və müvafiq qərarlar qəbul olunub.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında dövlətimizin başçısının sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması, rəqabət qabiliyyətli məhsul istehsalının artırılması və ixracın stimullaşdırılması barədə verdiyi tapşırıqların icrası çərçivəsində İqtisadiyyat və Sənaye Nazirliyinin Kollegiya iclasında qəbul edilmiş qərara əsasən, nazirliyin tabeliyində olan "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC-nin müraciətinə baxılıb və qeyri-neft məhsullarının ixracı zamanı malın mənşə ölkəsinin müəyyən edilməsi üzrə ekspertizanın keçirilməsi xidmətlərinin tarifləri orta hesabla 30 faiz aşağı salınıb.



# İdmançımız dünya rekordu qırdı

Qətərin paytaxtı Dohada keçirilən atletika üzrə Dünya çempionatında ölkəmizi təmsil edən paralimpiyaçı İradə Əliyeva mundialın qızıl medalını qazanıb.

Nizəatma yarışlarında 44,18 metr göstərici ilə dünya çempinu olub. Təmsilçimiz həmçinin dünya rekordunu qıraraq gələn il Rio-de-Janeyrodakeçiriləcək paralimpiya oyunlarına lisenziya qazanıb.

# Azərbaycan dilinə 2500 yeni termin daxil edilir

Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının sədr müavini Sayalı Sadıqova Trend-ə bildirib ki, həmin terminlər yeni hazırlanan və artıq çap olunma ərəfəsində olan izahlı dilçilik lüğətinə daxil edilib.

Lüğətdəki terminlər son 2-3 il ərzində dilimizə yeni daxil olan və dilin daxili imkanları hesabına yaranan sözlərdir. Terminlər müxtəlif sahələr - informatika, iqtisadiyyat, riyaziyyat, kimya, tibb sahələri üzrədir. Yeni terminlərin sırasında informatika sahəsi üzrə olan sözlər çoxluq təşkil edir.

S.Sadıqova əlavə edib ki, yeni terminlər indiyədək Azərbaycan dilinin orfoqrafiya, eləcə də izahlı lüğətinə daxil edilməyib.

Trend yeni terminlərin bir neçəsini oxuculara təqdim edir:

**AYFON** – Səs, rabitə və görüntü imkanlarını özündə birləşdirən simsiz multimedia qurğusu.

**AYPƏD** – İnternetə fərdi qoşulma cihazı; klaviaturasız noutbuk.

**BİOPSİYA** – Xəstəliyin xarakterini mikroskopla müəyyən etmək üçün canlı orqanizm toxumasından kiçik bir parçanın kəsilib müayinə edilməsi.

**CAKUZİ** – Suyun xüsusi sistem üzrə dövr etdiyi və yüksək təzyiqlə vurulduğu vanna.

**CEKPOT** – Lotereyada böyük məbləğli uduş.

**ÇAT** - İnternet şəbəkəsi dialoq rejimində qısa mətn məlumatları ilə mübadilənin təşkili. Bu halda dialoq iştirakçıları klaviatura vasitəsilə sorğu göndərir və displeyin ekranında cavabı alır.

**ÇAT SEANS** – İnternet şəbəkəsində qarşılıqlı dialoqun əsas forması.

**ÇİLƏYİCİ HOVUZ** – Su dövranlı basqılı boru kəmərləri sistemi ilə təchiz olunmuş açıq çən.

**ÇİP** – 1. Mürəkkəb siqnal elementi. Bu siqnalın uzunluğu informasiyalı simvolun uzunluğundan dəfələrlə azdır. 2. Bir kristal üzərində yarımkeçirici mikrosxem.

**ÇİP SÜRƏTİ** – Geniş skeptrli sistemdə siqnalların verilmə sürəti. Takt tezliyi giriş siqnalın tezliyindən dəfələrlə çoxdur.

**ÇİPS** – Lay-lay doğranmış və yağda qızardılmış kövrək, xırçıldayan kartof dilimləri.

**ÇİZBURQER** – İsti qəlyanaltı; ikiyə bölünmüş və arasına kotletlə pendir qoyulmuş ədviyyatlı dairəvi kökə.

**DATA KART** – İnformasiya əməliyyatlarını yerinə yetirmək üçün elektron kart.

**DAYCEST** – Rəqəmli imza rolunu oynayan qısa şifrələnmiş məlumat. Bu rabitə kanallarında şifrə edilməmiş məlumatlar birgə ötürülür.

**DEBET** - Müəssisənin (bankın) borclarının miqdarını göstərən, mühasibat hesablarının sol tərəfidir. Aktiv hesablarda debet sayılan məbləğin artmasını, passiv hesablarda isə azalmasını göstərir. Bütün iqtisadi hesablaşmalar bir hesabın debetinə və digər hesabın kreditinə yazılır.



**DEBET NOT** – Bu və ya digər səbəblərə görə ödənilməli olan, sonuncu müəyyənləşdirilmiş məbləğin debet hesabına yazılması barədə bir tərəfin o biri tərəfə göndərdiyi bildiriş.

**DEBET KARTI** – Alıcının cari hesabından onun tərəfindən alınmış mal və xidmətlərə görə pul silinməsini həyata keçirən mikroprosessor kartoçka.

**DEBİTOR** – Kredit (borc) verilmiş hüquqi və ya fiziki (borclu) şəxslərdir.

**DEBİTOR BORCLARI** – 1. Debitorlardan, yəni hüquqi və ya fiziki şəxslərdən müəssisəyə çatacaq borcun məbləğidir. Debitor borcu iqtisadi fəaliyyətin normal prosesi və ya maliy¬yə, yaxud ödəmə intizamının pozulması ilə əlaqədar ola bilər. Debitor borcu xammal və materialların alınması üçün dövriy¬yə vəsaiti çatışmazlığında vaxtsız ödəmə hallarında, müəssisə dayanarkən işçilərə əmək haqqının verilməsində müəssisənin dövriyyəsindən vəsaitin ayrılmasını əks etdirir. 2. Şirkətin gəlir¬lərinin ümumi məbləğinin qeyri-müəyyənliyi nəticəsində, hələ¬lik üçüncü şəxs tərəfindən daxilolmaların hesaba yazılmamış gəlirləridir.

**DEBURS** – Qaytarıla bilməyən ticarət və digər xərclər.

**DEVALVASİYA** - Pul vahidinin, qızıl məzənnəsinin rəsmi azalması, yaxud milli valyutanın qızıla, gümüşə, xarici valyu¬taya görə məzənnəsinin aşağı düşməsi deməkdir. İnflyasiya, tədiyyə balansının defisiti (kəsiri) pul dövriyyəsinin pozulması nəticəsində digər ölkələrin valyutası ilə müqayisədə bir ölkənin valyutasının dəyişmə məzənnəsinin birdəfəlik aşağı düşməsi,qiymətdən düşməsidir. Devalvasiya zamanı ixrac olunan mallar ucuzlaşır, idxal olunan mallar isə bahalaşır.

**DƏRƏCƏ PROFİLİ** – Təhsil proqramı və ya ixtisaslaşma xüsusiyyətlərinin təsviridir. Bu tanıdıcı, təhsil proqramının məxsusi məqsədlərinə əsaslanan proqramın əsas xüsusiy-yətlərini, tədris olunan fənlərin akademik xəritəsinə və ya tematik təlimlərə necə uyğunlaşmasını və peşəkar ictimaiyyətə nə dərəcədə aid olmasını göstərir. Cəmiyyətin və konkret fənn sahəsinin birgə ehtiyaclarının, o cümlədən sözügedən təhsil proqramının təsis edilməsi üçün tələb olunan maliyyə və kadr resurslarının təhlili prosesinin nəticəsində yeni dərəcə profili təsis edilə bilər.

**DİCEY** – Səsyazma daxil edilməklə, şərh, zarafat və reklamla müşayiət olunan musiqili verilişin və ya əsasən, musiqi üzərində qurulmuş radio proqramının aparıcısı.

**DİSKRESİON SİFARİŞ** – Qeydiyyatdan keçmiş nüma¬yəndəyə və ya digər broker firmasına qiymətli kağızların seçil¬məsi, qiymətli kağızların miqdarı və həmçinin alqı-satqı haq-qında müştəri adından xüsusi qərarlar qəbul edilməsinə səla¬hiyyət verən sifarişdir.

**DİSKRESYA SİYASƏTİ** – Qanunverici və icraedici orqanın qərarında daha çox dəyişən iqtisadi vəziyyətə nəzərdə tutulan çevik siyasətdir.

**DİSKRETLƏŞDİRMƏ** – Fasiləsiz analoq siqnallarının diskret impulslar ardıcıllığına çevrilməsi prosesi.

**DİSKRET İSTEHSAL** – Məhsulların fasilələrdə istehsal edildiyi metoddur. Məsələn, avtomobillərin, kompüterlərin və s-nin istehsalı.

**DİSKRET KƏMİYYƏTLƏR** – Müxtəlif qiymətli tapşırıqlara verilmiş fasiləsiz ölçülərin əksi olan kəmiyyətlər. İqtisadiyyatda üstünlük təşkil edən diskret anlayışlardan, göstəricilərdən istifadə edilir. Onlar qeydə alınır, ölçülür, müəyyən vaxt və müxtəlif anlarda hesablanır (saat, gün, həftə, ay, rüb, il, bir neçə il).

# Süni ət yaxın beş ildə satışa çıxarılacaq



"Sınaq şüşəsində ət" yetişdirməyə nail olan niderlandlı alimlər yaxın beş ildə öz məhsullarının kommersiya satışını planlaşdırırlar.

"Vesti.ru" saytı xəbər verir ki, tədqiqatçılar bu məqsədlə hazırda 25 alim, laborant və administrativ personaldan ibarət "Mosa Meat" kompaniyasını qurublar. Yaxın gələcəkdə onlar hamburger üçün nəzərdə tutulmuş dadlı və ucuz ət hazırlamaq barədə düşünürlər.

Xatırladaq ki, iki il bundan əvvəl süni ətlə hazırlanmış ilk burger Londonda təqdim olunmuşdu. Süni ət professor Mark Post tərəfindən Niderlanddakı Maastrixt Universitetinin nəzdində fəaliyyət göstərən laboratoriyada əldə olunmuşdu.

"Əminəm ki, bizim məhsulumuz növbəti beş ildə artıq bazara çıxacaq. Hazırkı baha qiymətə baxmayaraq, gələcəkdə yüksək tələbat və kütləvi istehsal süni ətin daha ucuz başa gəlməsinə səbəb olacaq", - deyə alim bildirib.

Alim tədqiqatı ətə artan tələbatı ödəmək məqsədi ilə apardığını iddia edir. Onun fikrincə, istehsal ənənəvi vasitələrlə həyata keçirilərsə, bunun üçün böyük həcmdə su və torpaq resurslarından istifadə olunmalıdır. Nəticədə atmosferə parnik effekti yaradan daha çox zərərli qazlar atıla bilər.

Gələcəkdə tədqiqatçılar 3D printerin köməyi ilə digər ət məhsullarının hazırlanması yollarını da tapmağa ümid edirlər.

# Dünyanın ən uzun şüşə körpüsü



Çinin Hunan əyalətində yerləşən "Shiniuzhai" milli parkında dünyanın ən uzun şüşə körpüsünün açılışı olub.

"Hi-news.ru" saytının verdiyi xəbərə görə, "Haohan Qiao" (Cəsarət körpüsü) adı verilən 300 metr uzunluğa malik körpü yerdən 180 metr hündürlükdə, Daş Budda dağının iki zirvəsi arasında çəkilib.

Əvvəl onun yerində taxta körpü olub. Ötən il ona əlavə edilən şüşə seksiya insanların çox xoşuna gəldiyindən körpünü tamamilə şüşədən düzəltmək qərara alınıb. Körpünün inşasında 24 millimetr qalınlığında şüşə elementlərindən istifadə olunub.

# Gün ərzində bir saat gəzinti insan ömrünü uzadır

Avstraliya alimləri insan ömrünü uzatmağın universal üsulunu müəyyən ediblər. Bunun üçün gün ərzində bir saat divanda oturmaq və ya uzanmaq əvəzinə açıq havada gəzmək kifayətdir. Sidney Universitetinin mütəxəssislərinin bildirdiyinə görə, bu, vaxtından əvvəl ölüm hallarını 12-15 faiz azaldır.



Mütəxəssislər bu məqsədlə orta və yaşlı nəslin 200 mindən çox könüllü nümayəndəsi üzərində təcrübə aparıblar. İnsanlar vaxtlarının əsas hissəsini iş yerində keçirdiklərinə və onun 70 faizini oturaq halda olduqlarına görə, bu rejim orqanizmin tam yüklənməsini və fiziki fəallığını həddindən çox azaldır. Alimlər təcrübənin iştirakçılarına gün ərzində cəmi bir saat oturaq vəziyyəti gəzinti ilə dəyişməyi təklif ediblər. Nəticə gözlənilməz olub. Belə ki, bir saat gəzənlərdə yalnız ətalət deyil, eyni zamanda xroniki yorğunluq və yuxusuzluq, bununla bərabər gənc yaşda ölüm riski də azalıb.

Alimlərin qənaətinə görə, gün ərzində bir saat idmanla məşğul olmaq insanların sağlamlığına çox böyük təsir göstərir.

## Yadigar söz

**Farid Farjad**
*(skripkaçı)*

**Dünyada yüzlərlə millət, din, dil, məzhəb ola bilər. Ancaq yalnız iki cür insan var: vicdanı olan və vicdanı olmayan.**

## Bakı və Abşeron üzrə namaz vaxtları

| Gün | Sübh namazı | Gün çıxır | Zöhr namazı | Əsr namazı | Axşam namazı | İşa |
|---|---|---|---|---|---|---|
| 01 Noyabr | 05:58 | 07:09 | 12:28 | 15:41 | 17:54 | 19:12 |
| 02 Noyabr | 05:59 | 07:10 | 12:28 | 15:40 | 17:53 | 19:10 |
| 03 Noyabr | 06:00 | 07:11 | 12:28 | 15:39 | 17:52 | 19:09 |
| 04 Noyabr | 06:01 | 07:12 | 12:28 | 15:38 | 17:51 | 19:08 |
| 05 Noyabr | 06:02 | 07:13 | 12:28 | 15:37 | 17:50 | 19:07 |
| 06 Noyabr | 06:03 | 07:15 | 12:28 | 15:36 | 17:49 | 19:06 |
| 07 Noyabr | 06:04 | 07:16 | 12:28 | 15:35 | 17:47 | 19:05 |
| 08 Noyabr | 06:05 | 07:17 | 12:28 | 15:34 | 17:46 | 19:05 |
| 09 Noyabr | 06:06 | 07:18 | 12:28 | 15:33 | 17:45 | 19:04 |
| 10 Noyabr | 06:07 | 07:19 | 12:28 | 15:32 | 17:44 | 19:03 |
| 11 Noyabr | 06:08 | 07:21 | 12:29 | 15:31 | 17:43 | 19:02 |
| 12 Noyabr | 06:09 | 07:22 | 12:29 | 15:30 | 17:43 | 19:01 |
| 13 Noyabr | 06:10 | 07:23 | 12:29 | 15:29 | 17:42 | 19:00 |
| 14 Noyabr | 06:11 | 07:24 | 12:29 | 15:28 | 17:41 | 19:00 |
| 15 Noyabr | 06:12 | 07:25 | 12:29 | 15:28 | 17:40 | 18:59 |
| 16 Noyabr | 06:13 | 07:26 | 12:29 | 15:27 | 17:39 | 18:58 |
| 17 Noyabr | 06:14 | 07:27 | 12:29 | 15:26 | 17:38 | 18:58 |
| 18 Noyabr | 06:15 | 07:29 | 12:29 | 15:25 | 17:38 | 18:57 |
| 19 Noyabr | 06:16 | 07:30 | 12:30 | 15:25 | 17:37 | 18:56 |
| 20 Noyabr | 06:17 | 07:31 | 12:30 | 15:24 | 17:36 | 18:56 |
| 21 Noyabr | 06:19 | 07:32 | 12:30 | 15:23 | 17:36 | 18:55 |
| 22 Noyabr | 06:19 | 07:33 | 12:30 | 15:23 | 17:35 | 18:55 |
| 23 Noyabr | 06:20 | 07:34 | 12:31 | 15:22 | 17:34 | 18:54 |
| 24 Noyabr | 06:21 | 07:35 | 12:31 | 15:22 | 17:34 | 18:54 |
| 25 Noyabr | 06:22 | 07:37 | 12:31 | 15:21 | 17:33 | 18:54 |
| 26 Noyabr | 06:23 | 07:38 | 12:31 | 15:21 | 17:33 | 18:53 |
| 27 Noyabr | 06:24 | 07:39 | 12:32 | 15:20 | 17:32 | 18:53 |
| 28 Noyabr | 06:25 | 07:40 | 12:32 | 15:20 | 17:32 | 18:53 |
| 29 Noyabr | 06:26 | 07:41 | 12:32 | 15:20 | 17:32 | 18:52 |
| 30 Noyabr | 06:27 | 07:42 | 12:33 | 15:19 | 17:31 | 18:52 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim Azərbaycan MEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# İnsanın "mikrob buludu" barmaq izlərini əvəz edir



Hər birimiz ətrafa makroorqanizmlə "can bir qəlbdə" yaşayan müxtəlif mikrobların unikal qatışığından ibarət "mikrob buludu" yayırıq. İnsanın "mikrob buludunu" barmaq izləri ilə müqayisə edən alimlər təxmin ediblər ki, fərdi məlumatların müdafiəsi və tibbi kartların tərtibi üçün gələcəkdə bakteriyalardan istifadə olunacaq.

"Live Science" xəbər verir ki, eksperiment çərçivəsində könüllüləri tam steril otağa yerləşdiriblər. Onların hər birinə təmiz noutbuk, stul, şəxsi paltar verilib. İki saat ərzində bu əşyalara insanın bakteriyaları hopub. Toplanmış materialı təhlil edən alimlər belə nəticəyə gəliblər ki, hər bir insanın bakterial tərkibi unikaldır və bir növ onun "barmaq izidir".

Tədqiqat müəlliflərinin sözlərinə görə, insan bədənində yaşayan trilyonlarla bakteriya mikrobiom əmələ gətirir. Bakteriyalar ətrafa insan bədənindən, paltarından, habelə tozdan yayılır.

## NO COMMENT



Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV, Oqtay ORUCOV *(məsul katib)*, Gennadi ZELMANOVİÇ.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
Qaynar xətt: qaynar_xett@scwra.gov.az
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (055) 635 98 90
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 05 33
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 124

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894